№10 (185) 31.07.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır
# REGION PRESS
İctimai qəzet
“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი
www.amm.ge

# Avropa Gənclərinin Olimpiya Festivalı sabah sona yetəcək

Tbilisidə iyulun 25-dən avqustun 1-dək davam edəcək Avropa Gənclərinin Olimpiya Festivalında dünyanın 49 ölkəsindən 4000 gənc idmançı iştirak edir. Festivalın proqramına idmanın 9 növü – cüdo, tenis, üzgüçülük, voleybol, velosiped idmanı, gimnastika, həndbol və basketbol, yüngül atletka üzrə yarışlar daxil edilmişdir.

Avropa Olimpiya Komitəsinin 2010-cu ilin noyabrında Festivalın 2015-ci ildə Tbilisidə keçirilməsi haqqında qəbul etdiyi qərar paytaxtda idman infrastrukturunun inkişafına, həmçinin yeni mehmanxanaların və idmançılar, onların fanatları və qonaqlar üçün yataqxanaların tikintisinə güclü təkan vermişdir.

**Bildiririk ki**, son məlumata görə Rusiya 19, İtaliya 12, Macarıstan 14, Hollandiya 8, İspaniya 10, Sloveniya 8, Moldova 4, Gürcüstan 7, Fransa 12, İrlandiya 7, Ukrayna 5, Böyük Britaniya 11, Rumıniya 4, Azərbaycan 5 medal qazanaraq ilk pillələrdə qərarlaşıblar.

EUROPEAN YOUTH OLYMPIC FESTIVAL TBILISI 2015

# Gürcüstanın Baş naziri ARDNŞ prezidenti ilə görüşüb



***Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ARDNŞ-in prezidenti Rövnəq Abdullayevlə görüşüb.***

Bu barədə Gürcüstan hökuməti administrasiyasının mətbuat xidmətindən xəbər verilib.

Məlumata görə, görüşdə cari investisiya məsələləri mövzusunda müzakirələr aparılıb.

İ. Qaribaşvili Gürcüstan hökumətinin ARDNŞ-in Gürcüstandakı investisiya fəaliyyətini yüksək qiymətləndirdiyini qeyd edib.

"Görüşdə Gürcüstan və Azərbaycan ölkələrarası əməkdaşlığın dərinləşməsi üçün hazır olduğunu bir daha təsdiqləyib”, - deyə hökumət administrasiyasından bildirilib.

Görüşdə ARDNŞ-in Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov və Gürcüstanın Baş naziri yanında İqtisadi Şuranın katibi, Biznes-Ombudsman Giorgi Qaxaria da iştirak ediblər.

# Gürcüstan XİN Rusiyaya nota göndərib

***Gürcüstanın Xarici İşlər Nazirliyi İsveçrə səfirliyi vasitəsilə Rusiya Federasiyasına etiraz notası verib.***

Nazirlikdən verilən məlumatda bildirilir ki, gürcü tərəfinin təşəbbüsü ilə İsveçrənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Günter Bexlerlə görüş keçirilib. Görüşdə bu il iyulun 10-da Qori və Axalqori rayonları ərazisində Rusiya Federasiyasının “sərhədi” Gürcüstanın daxilinə çəkməsi, qeyri-qanuni banerlər quraşdırılması barədə səfirə ətraflı məlumat verilib.

Xarici İşlər Nazirliyi səfirə Rusiyaya təqdim etmək üçün notanın mətnini verib.

G.Bexler Rusiyanın bu hərəkətinin adi hal olmadığını və ona müvafiq reaksiya verilməsinin vacibliyini vurğulayıb.

MINISTRY OF FOREIGN AFFAIRS OF GEORGIA

# 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günüdür

1 avqust Azərbaycanda ən əziz günlərdən biri kimi qeyd olunur. Çünki milli varlığımızın əsas atributlarından olan Ana dilimizlə bağlıdır. Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur. Bu gün Azərbaycan dilinin dövlət statuslu dillər arasında olmasına görə bu dilin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan




dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi.

Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. “Dövlət dili işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi Azərbaycanda bütünlüklə təmin edilməsi ulu öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etdi. Ümummilli liderin 9 avqust 2001-ci il tarixli fərmanı ilə avqustun 1-i Azərbaycanda “Azərbaycan dili və Azərbaycan əlifbası günü” kimi qeyd olunur.

## Milli Mətbuat günü Gürcüstanda da qeyd olunub



Səh.2-də

## “45 illik təcrübəmdən bilirəm...”



*"Gürcüstan" qəzetinin redaktoru İslam Əliyevlə müsahibə*

İbrahimxəlil

Səh.5-də

## Elimizin alim oğlu



Təhməz Abbasov

Səh.8-də

## Tanınmış şair Nizami Paşa Saraclının 65 illiyi qeyd edilib



RegionPress

Səh.10-da

# Milli Mətbuat günü Gürcüstanda da qeyd olunub

***Gürcüstanın Marneuli şəhərində Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun azərbaycanlı jurnalistlərlə görüşü keçirilib.***

Milli mətbuatımızın 140 illiyinə həsr olunan görüş Azərbaycanlıların Mədəniyyət Mərkəzi və Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyi tərəfindən təşkil edilib.

Görüşü Azərbaycanlıların Mədəniyyət Mərkəzinin sədri Fazil Həsənov açıb. Sonra Ə. Amaşov, Şura üzvü Yadigar Məmmədli, Marneuli rayon icra hakimiyyətinin başçısı Merab Topçişvili, Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi İlyas Məmmədov, Gürcüstan Barış və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyinin rəsmisi Zaur Dargallı, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Məmmədzadə, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin mətbuat xidmətinin rəhbəri və gənclər şöbəsinin müdiri Nərgiz Əliyeva, "Regionpress" qəzetinin redaktoru Binnət Əlioğlu, şairə Güllü Tomarova, Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu, Bolnisidə çıxan "Ümid" qəzetinin redaktoru Əlixan Yəhyaoğlu, şair Aslan Görarxlı, journalist Təhməz Təhməzov, "Qarapapaqlar" jurnalının baş redaktoru Akif Xansultanlı, jurnalist Aynurə Əliyeva, tədqiqatçı-jurnalist Mirzə Məmmədoğlu, AMM-in təhsil şöbəsinin müdiri Mikayıl Mustafa, "Borçalı İş Adamları" İB-nin rəhbəri İsrafil Bayramov, şair Nizami Saraclı və başqaları çıxış ediblər. Onlar milli mətbuatımızın 140 illiyi münasibətilə bütün jurnalistləri təbrik edərək mətbuat tariximizin inkişafından, həmçinin Gürcüstanda Azərbaycandilli mətbuatın problemlərindən və çıxış yollarından danışıblar. Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli KİV -in üzləşdiyi problemlər - maliyyə dəstəyinin olmaması, azsaylı tirajla çap olunan qəzetlərin əhaliyə yetərli qədər yayılmaması, gənc jurnalistlərin olmaması və onlar üçün heç bir mətbu orqanın - jurnalların çap olunmaması, həmçinin elektron medianın mövcud olmaması kimi problemlər səsləndirilibdir.



Azərbaycanda mətbuata dövlət dəstəyindən danışan Ə. Amaşov qeyd edib ki, Azərbaycan dövləti 60-dək qəzetə yardım göstərib: "Dövlət KİV-lərin inkişafına Dövlət Dəstəyi Fondu yaratdı və bu Fond hər il təqribən 40-a qədər üzdə olan qəzetə ildə 120 min manat ayırır. Həmin Fond jurnalistlərin iştirakı ilə müsabiqə elan edir və qaliblər pul mükafatına layiq görülür, həmçinin yüz jurnalistə fərdi təqaüd verilir".

Ə. Amaşov Gürcüstanda Azərbaycandilli mətbuatın inkişafı üçün şəraitin mövcud olduğunu bildirib: "Gürcüstanda Avropa İttifaqı, Avropa Şurası mətbuatın inkişafı üçün xüsusi fondlar yaradıb və bu fondlar mətbuata milyonlarla avro yardım ayırır. Bu yardıma sahib olmaq üçün Gürcüstanda fəaliyyət göstərən azərbaycanlı jurnalistlər fondlarla işləməlidir. Onlara lazımi səviyyədə layihələr yazaraq qrantlar əldə edə bilərlər".

Mətbuat Şurasının sədri Gürcüstanda fəaliyyət göstərən Azərbaycandilli məktəblərin durumuna da münasibət bildirib. O, Gürcüstanda yaşayan soydaşlarımızın dövlət dilini bilməsinin vacibliyini vurğulayıb.

Ə. Amaşov tədbirdə Gürcüstan Jurnalistlər Birliyinin sədri N. Məmmədzadəyə və professor Mahmud Kamaloğluna milli mətbuatımızın 140 illiyinə həsr olunan "Gürcüstanın Azərbaycanlı Jurnalistləri" kitabını hazırladıqlarına görə təşəkkür edib və yubiley günlərində kitabın Bakıda təqdimat mərasimini təşkil edəcəyinə söz verib. O, kitabın Azərbaycan mətbuatı tarixinə bir töhfə oduğunu və müəlliflərin Mətbuat Şurası tərəfindən mükafatlandırılacağını bildirib.

Sonda Mətbuat Şurasının sədri jurnalistlərin təklif və rəylərini dinləyib.

**RegionPress**

# Azərbaycanın Gürcüstanla sərhəddə yerləşən keçid məntəqələrindən sərnişinlərin 24 saat keçidi təmin olunacaq

***Bu il avqustun 10-dan isə saat 08:00-dan 20:00-dək yüngül minik avtomobillərinin keçidinin təmin olunması barədə razılıq əldə edilib.***

Dövlət Gömrük Komitəsi Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sınıq Körpü" gömrük-keçid məntəqəsində Azərbaycan və Gürcüstan gömrük orqanlarının nümayəndə heyətlərinin görüşü keçirilib.

Komitənin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, görüşdən əvvəl nümayəndə heyətləri hər iki ölkənin gömrük orqanları rəhbərləri arasında "Sadıxlı" keçid məntəqəsinin fəaliyyətinin bərpası ilə bağlı görüşlərin



keçirilməsinə dair əldə olunan razılıq çərçivəsində "Sadıxlı" və "Mtkvari" keçid məntəqələrindəki vəziyyətlə tanış olublar. Daha sonra "Sınıq Körpü" keçid məntəqəsində nümayəndə heyətlərinin görüşü keçirilib.

Görüşdə bildirilib ki, hazırda bölgədə həyata keçirilən irimiqyaslı layihələr, eləcə də turizm potensialının gücləndirilməsi ilə əlaqədar tədbirlər nəticəsində sərhəddən keçən sərnişinlərin, yüklərin və nəqliyyat vasitələrinin ciddi artımı müşahidə olunur. Bu istiqamətdə gömrük xidmətinin keyfiyyətinin daha da yaxşılaşdırılması, sərhəddən keçidin sürətləndirilməsi və asanlaşdırılması məqsədilə birgə əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüşdə "Sadıxlı" və "Mtkvari" keçid məntəqələrindən sərnişinlərin 24 saat keçidinin təmin olunması üçün lazımi tədbirlərin görülməsi, bu il avqustun 10-dan etibarən isə saat 08:00-dan 20:00-dək yüngül minik avtomobillərinin keçidinin təmin olunması barədə razılıq əldə olunub.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər və əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Marneulidə "Milli azlıqların forumu" keçirildi

"Gənc vəkillər" təşkilatı, Marneuli bələdiyyəsində "Milli azlıqların forumu" birinci bölgə görüşü keçirdi. Forum şərq tərəfdaşlığı proqramının ölkəmizə səmərəsinə və Avropaya inteqrasiya məsələlərinin müzakirəsinə həsr olundu.

Forumda Gürcüstanın ədliyyə naziri Tea Sulukiani, Kvemo Kartli bölgə qubernatoru Paata Xizanişvili, Avropa və Avroatlantik strukturlara inteqrasiya naziri Arçil Qaraulaşvili, NATO və Avropa ittifaqı informasiya mərkəzinin direktoru, Elene Qotsadze, Barışıq və Vətəndaş Bərabərliyi üzrə dövlət naziri aparatının, Gürcüstan Xarici İşlər Nazirliyinin, Gürcüstan Elm və Təhsil nazirliyinin, Gürcüstan xalq müdafiəçisi aparatının nümayəndələri və yerli özünüidarənin əməkdaşları iştirak edirdilər.




Nazirliklərin rəhbərləri kimi layihə müəlliflərıdə forum iştirakçılarına şərq tərəfdaşlığı proqramının tarixindən, müasirlik və rolundan, Avropa ittifaqı ilə Gürcüstan arasında assosiasiya müqaviləsinin əsas aspektlərindən, Gürcüstan hökuməti tərəfindən sözügedən müqavilənin implementasiya prosesindən, Avropa inteqrasiyası prosesində ölkənin milli azlıqlarının cavabdehliyi və vətəndaş mövqeyinin vacibliyindən, onların hüquq və səlahiyyətlərindən söz açdılar.

Qeyd etmək lazımdır ki, görüş interaktiv idi. Orada aktual məsələlər barədə verilən suallar cavablandırıldı. Nazir Tea xanım Sulukiani forumda iştirak edən vətəndaşları dinləyərək, onların ünvanladıqları sualları ətraflı cavablandırdı.

"Gənc vəkillər" təşkilatının rəhbəri, Arçil Qaiqatsişvilinin sözlərinə görə, layihənin əsas məqsədi Gürcüstanda yaşayan milli azlıqların məlumatlandırılması, proseslərə qoşulması və bu məsələlərə münasibətdə inamlarının artırılması, Şərq tərəfdaşlığı proqramı, Gürcüstan və Avropa İttifaqının əməkdaşlıqı perspektivləri, şərq tərəfdaşlığı siyasəti çərçivəsində milli azlıqların roludur. Hazırda ölkə avropainteqrasiyası ilə tarixi seçim qarşısıdadır və institusional inkşafın getdiyi bir zamanda milli azlıqların nümayəndələrinin vətəndaş cavabdehliyinin artırılması böyük önəm kəsb edir.

# İctimaiyyətin rəyi öyrənilir

Marneulidəki Mülki Məşğulluq Mərkəzində "Avropa Təşəbbüskarlığı Tbilisi Liberal Akademiyası" "Rusiyanın Gürcüstanda sərt və yumşaq siyasətinin təhlükəsi" mövzusunda görüş keçirib. Layihənin məqsədi Rusiyanın siyasi-iqtisadi və digər vasitələrlə Gürcüstanda cari siyasi proseslərə təsir etmək imkanlarının öyrənilməsi, həmçinin mövcud vəziyyətin, həmçinin bu yöndə yaxın gələcəkdə yarana biləcək təhlükə və risklərin qiymətləndirilməsi və müzakirəsi olmuşdur.




Rusiya-Gürcüstan münasibətlərinin geniş ictimai müzakirəsi və cəmiyyətin bu proseslərə cəlb olunması layihənin əsas hədəflərindən biridir.

"Avropa Təşəbbüskarlığı –Tbilisi Liberal Akademiyası"nın direktoru Laşa Tuğuşi sadalanan problemlər barədə iştirakçılara ətraflı məlumat verdi və onları maraqlandıran sualları cavablandırdı. O bildirdi ki, layihə çərçivəsində Gürcüstan-Rusiya dialoqu zamanı müəyyən sualların öyrənilməsi istiqamətində hakimiyyət üçün konkret tövsiyələr hazırlanacaqdır.

**"RegionPress"**

# Marneulidə məktəbəqədər hazırlıq mərkəzləri açılıb

Marneulinin icra hakimiyyəti binasında "Marneulinin demokrat qadınlar ittifaqı"nın təşkilatçılığı ilə görüş keçirildi. Tədbirdə "Marneulidə məktəbəqədər hazırlıq mərkəzləri"nin açılması məsələsi müzakirə olundu

Görüşdə Marneuli bələdiyyəsinin icra başçısı Merab Topçişvili, özünüidarəetmənin digər rəhbər şəxsləri, təhsil ehtiyat mərkəzinin direktoru Ruslan Hacıyev, ictimai məktəblərin direktorları və Marneuli 3 saylı uşaq bağçasının müdiri iştirak etdilər.



Layihə Polşa hökumətinin kiçik qrantlar proqramının dəstəyi ilə 2015 ci il iyulun 1 dən həyata keçirilməyə başlayıb və dekabrın 11-dək davam edəcək. Sözü gedən layihə çərçivəsində 6 məktəblərdə məktəbəqədər hazırlır mərkəzinin açılması nəzərdə tutulur. (Kosalı, Təzəkənd, Qaçağan, Araplı, Candar və Marneuli 6 saylı məktəblərində) Layihə çərçivəsində mərkəzlər 3 il fəaliyyət göstərəcək. 3 ildən sonra mərkəzlər Marneulinin "Məktəbəqədər tədris mərkəzləri"nin balansına daxil ediləcək.

Məktəbəqədər hazırlıq mərkəzlərinin açılmasında məqsəd körpələri məktəbə hazırlamaq, məktəbə tez adaptasıya olunmasına təkan verməkdir.

"Basko" proqramının vasitəçiliyi və yardımçılığı ilə mərkəzlərdə tədris prosesini idarə etməyi " Marneuli demokrat qadınlar ittifaqı" öz boynuna götürüb. Mərkəzlər hər iş günü 4 saat fəaliyyət göstərəcək. Qeyd etmək lazımdır ki, "Nene, Dudu və Niko" proqramı vasitəsi ilə gürcü dili haqqda körpələrə dərin məlumat veriləcək.

Bu iki proqramdan pilot kimi azərbaycandilli və qarışıq qruplarda istifadə olunacaq. Layihə sona çatandan sonra təşkilat tədris prosesini qiymətləndirəcək. Təşkilat bu proqram çərçivəsində əldə etdiyi təcrübələrini nazirlik və yerli özünüidarəetmə ilə bölüşəcək.

**Turac İbrahimova**

# Paşa Bank yubiley festivalına hamilik etdi

PASHA Bank

Paşa Bankın sponsorluğu ilə 2015-ci il iyulun 12-21-də Poti şəhərində dünya şahmat aləminin əfsanəsi, ikiqat dünya çempionu, dünya şahmat olimpiadasınının 12 dəfə qalibi, beynəlxalq idman ustası Nana Aleksandriyanın şərəfinə ənənəvi 10-cu yubiley beynəlxalq şahmat festivalı keçirilib.

Paşa Bank ikinci ildir ki, sözügedən festivala sponsorluq edir. Festival 2006-cı ildən Poti şəhəri yerli idarəetmənin təşkilatçılığı ilə keçirilir. Festival uşaqlar, eləcə də peşəkar şahmatçılar arasında müxtəlif kateqoriyaya malik 10 turniri əhatə edir.

Sözügedən festival yüksək reytinqə malik şahmatçıların iştirakı, miqyası və təşkilatçılığın səviyyəsi baxımından Qafqaz bölgəsində ən qədim festivaldır və Dünya Şahmat Federasiyasının illik təqviminə daxil edilib. Festivalda oynanılan patriyalar onlayn rejimində internet vasitəsi ilə veriləcək və dünya miqyasında şahmat həvəskarlarına partiyaları seyr etməyə imkanlar yaradır. «Bizim biznes yanaşmasının xarakterik xüsusiyyətlərindən biri odur ki, bizim üçün uzun müddətli partnyorluq çox əhəmiyyətlidir. Paşa Bank 2013-cü ildən Gürcüstanda fəaliyyət göstərir və artıq ikinci ildir ki, Nana Aleksandriyanın şərəfinə keçirilən şahmat festivalına sponsorluq edirik. Gürcü şahmat məktəbi həmişə fərqlənmiş və bir neçə dünya səviyyəli şahmatçı bu idmanın tarixini yaxşı xatırlayır. Ümidvarıq ki, bu ənənə davam edəcək və bu cür festivalın keçirilməsi öz hünər və qabiliyyətlərini ikişaf etdiməyə daha çox zəmin yaradacaq». - Paşa Bankın baş direktoru cənab Şahin Məmmədov bildirib.

**"ambebi.ge"**

# Gürcüstanda tariflərin bahalaşması 208 min ailəyə təsir göstərməyəcək



"Köhnə və təzə tarif arasında olan fərqi, yəni bahalaşmanı, 633 min insan hiss etməyəcəklər. Çünki bunu tamamilə dövlət ödəyəcək", - deyə Baş nazir İrakli Ğaribaşvili xüsusi brifinq zamanı çıxış edib.

Baş nazirin dediklərinə görə,Gürcüstanda heç bir sosial təminatsız ailə işığın bahalaşması ilə bağlı narahat olmayacaq və heç bir tetri belə artıq ödəməyəcək. Sosial təminatsız ailələr elə keçmiş köhnə tariflə də ödəniş ödəyəcəklər.

"Bu sosial bazada 70 min xal toplamış sosial təminatsız 208 min ailəyə aiddir. Fərq etməz, istər işıqdan az istifadə etsinlər, istərsə də çox!

Köhnə və təzə tarif arasında olan fərqi, yəni bahalaşmanı 633 min insan hiss etməyəcək. Çünki bunu tamamilə dövlət ödəyəcək" - deyə Baş nazir çıxışında vurğulayıb.

Xatırldaq ki,Gürcüstanın Energetika və Su tənzimləmə komissyasının qərarı ilə regionlarda işığın qiyməti 3,9 tetri bahalaşdı.

# Gürcüstan parlamenti "sürünən işğal haqqında" qətnamə qəbul edib

Gürcü mətbuatına istinadən verilən məlumata görə, "Rusiya Federasiyası işğalçı qüvvələrinin Gürcüstana qarşı növbəti təxribat hərəkətləri haqqında" adlanan sənəddə parlament Gürcüstanı Rusiyadan ayıran Sxinvali regionundakı qondarma sərhəd xəttində, ölkənin Şərq-Qərb avtomobil magistralının yaxınlığında və Bakı-Supsa boru kəmərinin bir hissəsinin keçdiyi yerdə yeni lövhələrin quraşdırılmasına görə Rusiyanı pisləyib. Qətnamə "Gürcü Arzusu" partiyasının təklifi ilə qəbul edilib. Sənədi 82 deputat dəstəkləyib.



"Milli Hərəkat" tərəfindən irəli sürülən eyniadlı qətnamə layihəsinə isə 50 deputatdan 15 deputat səs verib.

Müzakirəyə çıxarılan hər iki sənədlər bir neçə maddə istisna olmaqla, əslində bir-birindən əhəmiyyətli dərəcədə fərqlənməyib.

Parlament tərəfindən qəbul edilən sənəddə Rusiyanın son vaxtlar Gürcüstanın işğal olunmuş bölgəsində de-fakto ilhaq, etnik təmizləmə, mülkiyyət və insan hüquqlarının kobud şəkildə pozulması, suverenliyi və ərazi bütövlüyünü pozan siyasətin davamı kimi təcavüzkar hərəkətləri pislənib.

Qətnaməyə əsasən, bu təxribat hərəkətləri Gürcüstanın regional və Avropa təhlükəsizliyini təmin edən Avropa və Avro-Atlantik inteqrasiyaya edilən səylərə ziddir. Sənəddə bildirilib ki, rəsmi Tiflis radikal qarşıdurmaya baxmayaraq, Rusiya ilə münasibətləri həll etmək üçün danışıqlar yolunu seçib.

Gürcüstan parlamenti qətnamədə hökuməti intensiv şəkildə ölkənin bu mövzuda mövqeyini beynəlxalq aləmə, həmçinin Cenevrə formatının beynəlxalq müzakirələrinə və BMT Təhlükəsizlik Şurasının formatına çıxarmağa çağırıb.

# "Cənub Qaz Dəhlizi" layihəsinin önəmi artır

Ukraynadakı münaqişə və qazla əlaqədar Moskva və Kiyevin qarşılıqlı münasibətləri səbəbindən "Cənub Qaz Dəhlizi" layihəsinin önəmi gündən-günə artır. Bunu Trend-ə Gürcüstanın Avropa və avroatlantik strukturlara inteqrasiya məsələləri üzrə dövlət naziri David Bakradze deyib.



Onun sözlərinə görə, son 1 il ərzində prezidentlər və nazirlər səviyyəsində Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlığın yaxşı təcrübəsi var: "Bu strateji tərəfdaşlıq artıq formalaşmış, regionumuzun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənmiş layihəyə yönəlib".

Gürcüstan bu layihəyə təkcə tranzit baxımından deyil, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi maraq göstərir.

Nazir bildirib ki, hazırda enerji təhlükəsizliyi Avropa üçün əsas məsələlərdən biridir: "Belə ki, enerji tədarüklərinin manipulyasiya edilməsi Rusiyanın vizit kartına, son vaxtlar bu sahədə manipulyasiya isə artıq siyasətə çevrilib. Buna görə də şaxələndirmə, Avropa üçün Xəzər resurslarının əldə edilməsi çox vacibdir".

D.Bakradze qeyd edib: "Hazırda "Silk Road" forumu, Çin və Avropanı birləşdirə bilən İpək yolunun bərpa edilməsi üzərində işlədiyimizdən Gürcüstanda tikilən bütün infrastruktur çox vacibdir. Bu, Bakı-Tbilisi-Qars dəmiryolu və Qara dənizdə Anakliyada inşa edilən limandır, bütün bunlar yeni İpək yolunun reallaşdırılmasına kömək edəcək".

# Saakaşvili Gürcüstan vətəndaşlığından imtina edir

***Odessanın yeni qubernatoru və Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili Gürcüstan vətəndaşlığından imtina edir.***



"Mixail Saakaşvili hazırda Gürcüstan vətəndaşlığından imtina prosesindədir". "Gazeta.ru"ya istinadən verilən xəbərə görə, bu barədə Odessa administrasiyasının mətbuat xidmətinin əməkdaşı Denis Samıqin bildirib.

Bundan əvvəl Saakaşvilinin müavini təyin olunmuş mərhum rusiyalı siyasətçi Yeqor Qaydarın qızı Mariya Qaydar Rusiya vətəndaşlığından imtina etmək niyyətində olduğunu və Ukrayna qanunlarına əməl edəcəyini bildirib.

Qeyd edək ki, Ukrayna konstitusiyasına əsasən bu ölkədə ikili vətəndaşlıq qadağandır.

## NATO Türkiyənin hərbi əməliyyatlarına dəstək verdi

Türkiyənin terror təşkilatlarına qarşı həyata keçirdiyi əməliyyatları müzakirə etmək üçün fövqəladə toplantı keçirən NATO gözlənilən açıqlamanı verib. NATO-nun baş katibi Jens Stoltenberq Brüsseldəki toplantıdan sonra keçirdiyi mətbuat konfransında prosesi yaxından izlədiklərini və Türkiyə ilə sıx əməkdaşlıq etdiklərini deyib.

Baş katib deyib: “Türkiyəyə qarşı terror aktlarını şiddətlə qınayırıq. Suruçtakı olayda, eləcə də polis və




hərbçilərə qarşı hücumlarda həyatını itirənlərin ailələrinə və Türkiyə hökumətinə başsağlığı veririk”.

Qeyd edək ki, toplantıda Türkiyə tərəfi hərbi tərəfdaşlarından yardım istəməyib.

## Rusiya 36 000 ton kimyəvi silahını məhv edib



Rusiya kimyəvi silah ehtiyatlarının 90 faizdən çox hissəsini məhv edib. APA-nın “TASS”a istinadən verdiyi xəbərə görə, bu barədə Kimyəvi silahın təhlükəsiz saxlanılması və məhv edilməsi üzrə Federal İdarənin rəisi general-polkovnik Valeri Kapaşin bildirib.

Onun sözlərinə görə, iyulun 27-dək məhv edilmiş birinci kateqoriyalı kimyəvi silahın ümumi həcmi 36 min ton, yaxud elan edilmiş ehtiyatların 90,4 faizini təşkil edib.

Valeri Kapaşin bildirib ki, ilin sonunadək, məhv edilmiş kimyəvi silahın həcmi 36,6 min ton, yaxud ümumi ehtiyatların 91,5 faizini təşkil edəcək.

Məlumata görə, 2015-ci ildən sonra kimyəvi silah ehtiyatlarının 3,4 min ton hissəsi yalnız Udmurtdakı “Kizner” obyektində qalacaq. Onun məhv edilməsi 2020-ci ilin dekabrın 31-dək başa çatacaq.

## Mübariz Qurbanlı Gürcüstan Provaslav Kilsəsinin mitropolitini qəbul edib

Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gürcüstan Provaslav Kilsəsinin mitropoliti, Gürcüstan Patriarxlığının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Gerasim Şaraşenidzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qurumdan Lent.az-a verilən məlumata görə, görüşdə Azərbaycanla Gürcüstan arasında əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb. Eyni zamanda digər sahələrdə olduğu kimi, din sahəsində əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Görüşdə Gürcüstanın Xornabuci və Hereti yeparxiyasının yeni təyin olunmuş yepiskopu Dmitri Kapanadze və Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidze iştirak edib.

## Dünya nəhəngindən Türkiyəyə dəstək

***Çin Türkiyənin PKK və İŞİD terror təşkilatına qarşı apardığı əməliyyatları dəstəkləyir.***



Bu barədə Çin Prezidenti Xi Jinping ölkəsində səfərdə olan türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşü zamanı deyib.

O, Türkiyənin suverenliyinin və sərhədlərinin təhlükəsizliyinin toxunulmaz olduğunu bildirib.

Qeyd edək ki, Türkiyə iyulun 24-dən başlayaraq İŞİD-ə və PKK-ya qarşı anti-terror əməliyyatları keçirir.

## İran yeddi dövlətin vətəndaşları üçün viza rejimini ləğv etdi



***“Bundan sonra turistlər İrana vizasız səfər edə bilərlər”.***

İran ölkədə turizm sənayesini stimullaşdırmaq məqsədilə yeddi ölkənin vətəndaşları üçün səfər vizasını ləğv edib.

Bu barədə "Tacc.ru" agentliyi xəbər yayıb.

"Bundan sonra Türkiyə, Livan, Azərbaycan, Gürcüstan, Boliviya, Misir və Suriyadan olan turistlər İrana vizasız səfər edə bilərlər”, - deyə, İran qəzeti yazıb.

Adları çəkilən ölkələrin vətəndaşları İranda 15 gündən 90 günədək vizasız qala bilərlər. Bundan əlavə, İran rəhbərliyi turizm sektorunu inkişaf elətdiormək üçün daha 60 ölkənin vətəndaşları üçün viza rejiminin ləğv imkanlarını nəzərdən keçirir.

## Kadırov: “Mənə sui-qəsd hazırlayana 100 min verdim”



***Mənim həyatıma qarşı bir neçə dəfə sui-qəsd təşkil edilib.***

Bunu “RİA-Novosti”yə müsahibəsində Çeçenistan Prezidenti Ramzan Kadırov söyləyib. O özünə qarşı son sui-qəsdin 4 ay bundan öncə təşkil edildiyini bildirib:

“Sonuncu dəfə sui-qəsd 4 ay bundan öncə Çernoreçyedə olmuşdu. Orada hər gün baxdığım meydançaya yollanmışdım. Həmin yeri Həmzət Bityukayevə tabe olan döyüşçülər minalamışdılar. Onlara məni öldürmək komandası verilmişdi. Biz onların hamısını məhv etdik. Mən başqa hadisələri də saya bilərəm. Bir dəfə Dağıstandan iki gənc oğlan gəlmişdi. Onlar da terror aktı hazırlayırdılar. Sonra biz onları tutduq. Görünürdü ki, uşaqlar çox kasıb ailədəndirlər. Mən onlara dedim ki, ailəniz haqqında danışın. Atasını öldürüblər, qardaşı yaralıdır, anası görmə qabiliyyətini 75% itirib və 50 min rubl pul yoxdur ki, onu əməliyyat etdirsinlər. Ona 100 min rubl pul verdim. Digərinə 50 min verib dedim ki, bunu evinə apar”.

## Obama bütün dünyaya müraciət etdi



Ağ Ev İnstaqram hesabında Prezident Barak Obamanın adından bütün dünya dövlətlərinə müraciət ünvanlayıb.

NASA-dan çəkilmiş Yer kürəsinin fotosu paylaşılan müraciətdə dünya ölkələri iqlim dəyişikliyi ilə mübarizəyə çağırılıb.

Xatırladaq ki, müraciət Obamanın Keniya və Efiopiya səfərini bitirdikdən sonra yayımlanıb.

# Rusiya BMT TŞ-nin qərarına veto qoydu

***Rusiya MH17 səfər saylı sərnişin təyyarəsinin bir il öncə Ukraynanın şərqində vurulması ilə bağlı beynəlxalq məhkəmənin qurulması istiqamətində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında (BMT TŞ) qəbul edilən qərara veto qoyub.***

Keçirilən səsvermədə Malayziyanın digər ölkələrlə birgə hazırladığı layihəni 11 ölkə dəstəkləyib. Lakin TŞ-nin daimi üzvü Rusiya qəbul edilməsi üçün yetərli səs qazanan layihəyə veto qoyub. Anqola, Venesuela və Çin bitərəf qalıb.

İki səhifəlik qanun layihəsində təyyarə faciəsi “beynəlxalq sülh və təhlükəsizliyə təhdid” olaraq qiymətləndirilib və BMT nizamnaməsinin 7-ci bəndinə uyğun olaraq məhkəmənin qurulması nəzərdə tutulub.




Məhkəmənin qurulmasında məqsəd isə Malayziya Hava Yollarına aid MH17 səfər saylı təyyarənin məhv edilməsində əli olan şəxslərin cəzalandırılmasıdır.

Səsvermədən sonra sualları cavablandıran Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vitali Çurkin qanun layihəsində siyasi motivlərin olduğunu önə sürüb:

“Biz dəfələrlə bunu həmkarlarımıza izah etmişik. Onları alternativlər üzərində düşünməyə çağırdıq. Ancaq layihəni hazırlayanlar əməkdaşlıq ruhu ilə hərəkət etməyi rədd etdi. Hadisənin beynəlxalq sülh və təhlükəsizliyə təhdid olaraq qiymətləndirilməsi düzgün deyil. Rusiya günahkarların təsbiti və cəzalandırılması məqsədi ilə BMT TŞ-nin 2166 saylı qərarı əsasında müstəqil və tərəfsiz istintaqın aparılmasının tərəfdarıdır. Bu gün sərgilədiyimiz siyasətin cəzasızlığa mükafat verməklə heç bir əlaqəsi yoxdur.




**1907** — Kubada insanın ölümünə səbəb olan duellər qadağan edildi.

**1944** — Antuan de Sent-Ekzüperi vəfat etmişdir.

**1946** — İsveç, Norveç və Danimarka SAS hava yolları şirkətinin əsasını qoydu.

**1951** — Yaponiya Hava Yolları şirkəti qurulmuşdur.

**1956** — Moskvada Lujniki futbol stadionunun açılışı oldu.

**1965** — İngiltərədə televiziyada siqaret reklamı qadağan edildi.

**1992** — Gürcüstan BMT-yə üzv olmuşdur.

# "45 illik təcrübəmdən bilirəm..."



***Tanınmış jurnalist, "Gürcüstan" qəzetinin redaktoru İslam Əliyevlə müsahibə***



**– Xoş gördük, İslam müəllim! Halal və haqq dolu hadisələrin birində deyilir ki, Allah-taala qiyamətdən sonra vaqif yazarlara-aydınlara yazdıqları "hər hərfin müqabilində... bir şəhər verər". Həm də məcazi mənada, orfoqrafiyası, morfologiyası və sintaksisi çox mükəmməl olan Sizintək bir qələm adamı üçün Hərf və Yazı nə deməkdir?**

– İlk növbədə bu görüşə-söhbətə görə səmimi təşəkkürümü bildirirəm, "Regionpress"in oxucularına böyük uğurlar diləyirəm. 45 illik təcrübəmdən bilirəm: Hərfin və Yazının qədrini bilənlər meydana qədirli də yazılar qoymağı bacarırlar Mənim üçün hər ikisi əzizdir. Birinə qiymət verməsən o biri qiymətdən düşər. Təəssüf ki, indi hər əli qələm tutan yazmağa çalışır. Yazsınlar, sözüm yoxdur. Ancaq cızma-qara ilə özlərini yekəxana aparıb zəhlə tökənlər, sözün əsl mənasında, həqiqi yazarları ruhdan salır. Yazmaq hər kəsin hüququdur. Lakin onun imzalanması da hüquqdur, mənəvi hüquq. Buna da hörmət etmək insani, mənəvi borcdur. Yazan çalışmalıdır ki, imzası ilə özünə nifrət deyil, hörmət qazandıra bilsin. Bunun isə başlıca amili Hərfə hörmətlə yanaşıb dəyərli Yazı meydana gətirməkdir.

Dövrümüzdə – həm də "hər Hərfin müqabilində... bir şəhər verər" sitatı mənasında – Hərf üçün də, Yazı üçün də geniş meydan açılıb. Gürcüstan iqtidarı media azadlığını, sözün həqiqi mənasında, tam təmin edib və hər kəsin öz fikrini azad ifadə etmək hüququ vardır. Qalır bu məsələdə Hərfin qədrini bilməklə dəyərli sözləri düzümləyib fikrini gözəl yazı ilə ictimaiyyətə çatdırmaq. Bu yolda hamımıza uğur diləyir, sözün qədrini bilməyi arzulayıram!

**– Həsən bəy Zərdabi 1875-ci ilin 22 iyulunda "Əkinçi" qəzetinin nəşrinə müvəffəq oldu və bununla da milli mətbuatımızın əsasını qoydu. M. S. Ordubadi demiş:**

***Dayandı başımız əğyar içində ərşi-əlayə,***
***Bizim də adımız millətlər içrə yadigar oldu...***

**Amma mətbuatda məslək məsələsi, "ərşi-əla", qürur öz yerində. Siz necə bilirsiniz, bizdən sonra gələn gənc yazarların taleyinə də elmli ehtiyacmı düşəcək?**

– Mətbuata münasibət müxtəlifdir. Hərə ondan bir cür istifadə edir. Məncə, mətbuat tarixdir, müəyyən zaman kəsiyində baş verən proseslərin güzgüsüdür. Bu baxımdan biz mətbuat işçilərinin üzərinə böyük mənəvi məsuliyyət düşür. Kim mövcud durumu necə işıqlandırır?! Məsələ burasındadır, hadisəyə obyektiv, qərəzsiz və tərəfsiz münasibət istər indi, istərsə də illər keçəndən sonra o imzaya hörmət gətirəcək. Əksinə olanda isə qiymət nifrətdir ki, nifrətdir.

Ümumiyyətlə, məslək, qürur tək mətbuatda deyil, hər sahədə başlıca amil olmalıdır. Onda iş də düz gedər, etibar artar, bir sözlə, əsl insani mühit mövcud olar. Gənc yazarlara gəlincə, şükür, ölkəmizdə milli azlıq nümayəndələrinin təhsil almaları yönümündə çox böyük işlər görülür, güzəştlər edilir. Əminəm ki, gənclərimiz etimadı doğruldacaq və ali məktəblərə diplom xatirinə deyil, elmli, gələcəyin bacarıqlı mütəxəssisi olmaq naminə daxil olacaqlar. Bu, onlara xalqımızı gürcü ictimaiyyəti arasında ləyaqətlə təmsil etməyə imkan yaratdığı kimi, həm də ölkənin tamhüquqlu vətəndaşı kimi mötəbər məclislərdə söz deməyə də imkan yaradacaqdır. Gənc yazarlarımız da niyyətlərini beləcə istiqamətləndirməlidirlər. Mənim fikrimcə, yazar ilk qələm məhsulundan özünü göstərir. Və vicdanlı adamlar onun sönməməsi üçün hər şeyi etməlidirlər. Yoxsa quyuya su tökməklə onu sulu etmək mümkün deyildir.

İndi gənc yazarları şamla axtarmaq lazımdır. Onların taleyi hamımızı narahat etməli, diqqətimizi çəkməlidir. Gənc yazarı ruhdan salmamaq, onu yaradıcılığa səsləmək vacibdir. Bizim borcumuzsa layiqli əvəzedicilər barədə düşünməkdir. Məncə, hansı sahə olursa olsun, insan vəzifə yerində layiqli varislə əvəz olunanda həm bu dünyada, həm də o dünyada rahat olar!

**– Gələn il 95 yaşı tamam olan "Gürcüstan" qəzeti demək olar ki, bir əsrlik mövcudluğu ərzində xüsusi nüfuza və çəkiyə malik olub. Qəzetin bu günkü durumu Sizi nə qədər razı salır?**

– "Gürcüstan" qəzeti burada yaşayan azərbaycanlıların durumunu bütün zamanlarda yetərincə işıqlandırıb. Əlbəttə, nöqsanlardan da xali deyildir, iş olan yerdə bəzən büdrəmələrə də yol verilir. Lakin ümumilikdə götürüləndə "Gürcüstan"ın uğuru nöqsanından qat-qat artıqdır. Qəzetin müasir durumuna gəlincə, bu kollektiv çox taleyüklü məqamlarla qarşılaşıb, ağır seçim qarşısında qalıb, ancaq sabiq redaktorumuz, görkəmli ictimai-siyasi xadim, böyük ziyalı, mərhum Süleyman Əfəndinin "ağıl-kamalın səsinə qulaq asmalı!" çağırışına sadiq qalaraq sınaqlardan qalib çıxıb, mərd – mərd cavabını, namərd isə namərd cavabını alıb və alacaqlar da... Əlbəttə, çətinliklər çoxdur. 90-cı illərdən qalma kompyuterlərlə işləyirik, maliyyə vəziyyətinə görə qəzetin tərtibatında ürəyimizdən keçənləri yerinə yetirə bilmirik. Ancaq ağlamağa, dilənçilik etməyə öyrəşməmişik və onu da heç kəsə arzulamırıq. Taledən bəxtimizə nə düşübsə onu da edirik və edəcəyik də. İstəkli oxucularımızın bir səmimi sözünü ən böyük mükafat sayır və ruhdan düşmürük. Mən bu barədə çox danışardım, 90-cı illərdə başımıza gələnlər böyük bir kitaba sığmaz. Ancaq başa düşən düşür, düşməyənə də istər de, istər demə.

**– Belə bəsit iddialar da var ki, guya hazırda "Gürcüstan"a, ümumiyyətlə, digər qəzetlərə də ictimai maraq azalıb. Siz necə düşünürsünüz?**

– Qəzetə marağı olmayanı nə keçmişdə, nə indi, nə də gələcəkdə bu işə cəlb etmək mümkün deyildir. Düzdür, bəzi ekspertlərin hazırda televiziya, internet vasitələrinin informasiyaları əhaliyə daha mobil və vaxtında çatdırdığını iddia edərək qəzetlərə yaxın on illiklərdə ehtiyac qalmayacağı gümanları da eşidilir. Mən bu fikirlərin informasiyanın operativ çatdırılması tərəfi ilə razılaşsam da, ümumilikdə qəbul etmirəm. Televiziya, internet ani olaraq bir hadisə barədə məlumatı yayımladı, yaxud saytında yerləşdirdi. İş bununla bitdi. Bəs bir neçə ildən sonra gələcək nəsil həmin hadisə barədə məlumatı haradan əldə edəcək? Əlbəttə, qəzetdən, jurnaldan...

Deməli, qəzet-jurnal həm də müəyyən zaman kəsiyində bizim tariximizi öz səhifələrində yaşadan vasitədir. Baxın "Gürcüstan"ın arxivlərdə saxlanılan nömrələrinə, ötən əsrin 20-ci illərindən üzübəri baş vermiş nə qədər maraqlı hadisələr özünə yer tapmışdır. Neçə-neçə tədqiqatçılar ondan bəhrələnib elmi işlər müdafiə etmişlər. Düzdür, bəzi üzdəniraq tədqiqatçılar özlərinə lazım olan materialları cırıb özləri ilə götürmüşlər. Neyləməli, bu da onların tərbiyəsidir...

Bu baxımdan qəzetlərə ictimai maraq azalıb deyə bir göz qırpımında qərar qəbul etməyi vicdansızlıqdan başqa bir şey sanmıram. Məgər mətbuatı, ümumilikdə isə kütləvi informasiya vasitələrini əbəs yerəmi "dördüncü hakimiyyət" *(ing.Fourth Estate)* adlandırıblar? Doğrudan da dilimizin diriliyi və duruluğu mətbuatda – bütövlükdə Hərfdə və Yazıda deyilmi?..

**– Sizcə, biz – Sizdən sonra gələnlər, şəyird-ustad münasibətləri zəminində bu gün müəllimlərimizə lazımi diqqəti göstərə bilirikmi?**

– Şəyird-ustad münasibətlərini saxlayanlar ailə tərbiyəsi, məktəb tərbiyəsi (həm də həyat məktəbi mənasında) görmüş xoşbəxtlərdir. Mən dəfələrlə şahidi olmuşam ki, insan nə edirsə özünə edir – istər yaxşılıq, istərsə də pislik olsun. Bu yaxınlarda "Gürcüstan"da mənim "Ummayın, umacaqlar!" sərlövhəli yazım dərc olundu. Burada valideynlərdən vardövlət uman nankor övladlardan söhbət açılır. Və onlara eyhamla bildirilir ki, sənin valideyninə münasibətinin cavabını mütləq övladından görəcəksən. Belədir həyat!

Sağ olun, siz düz yol tutubsunuz və əminəm ki, bizə göstərdiyiniz qayğını, gələcək nəsildən mütləq görəcəksiniz...

**– Bəziləri "söz azadlığı"nı xarabalıqlar düzəltmək, daş üstə bir daş qoymamaq kimi qanırlar. Amma qanmayanlarla nə işimiz? Qələmləri ilə ümid göyərdən gənc qələm sahiblərinə ümidvar sözünüz?**

– Təəssüf ki, bəziləri "söz azadlığı"nı ya düzgün dərk etmirlər, ya da hər şeyi öz xeyirlərinə nizamlamağa çalışırlar. Hər şeyin öz mizan-tərəzisi olmalıdır. Azadlıqla yanaşı, insan vətəndaşlıq borcunu da dərk etməlidir. Gənc qələm sahiblərinə gəlincə, onlara hər bir yöndəmsiz işdə yaxşı cəhəti axtarıb tapmağı, onu önə çəkməyi məsləhət görürəm. Çünki bu qloballaşan dünyada insana yaxşı informasiyalar çatdırmaq savab işdir. Artıq beyinlər qanlı-qadalı, iyrənc məlumatlardan zinhara gəlib. Gənc qələm sahiblərini gözəl gələcək gözləyir. Gürcüstanın xoşbəxt gələcəyinə əminəm, siz elə bir ölkənin vətəndaşısınız ki, burada insana, insanlığa, sözə, ləyaqətə, bəşəri dəyərlərə, milli-mənəvi dəyərlərə həmişə yüksək qiymət verilib, demokratiya getdikcə inkişaf etdirilir. Əminəm ki, vətənin layiqli övladı olmaq üçün ilk növbədə mükəmməl təhsil alacaq, nail olduqlarınızla kifayətlənməyəcək, yeni-yeni uğurlar qazanacaq, cəmiyyətə inteqrasiya yönümündə inamlı addımlar atacaq, həyatınızı namus, qeyrət zəminində kökləyəcəksiniz!

**– Qələm sahibləriylə bağlı bir sitat yadımda qalıb:**
***Suvarmış məmləkət gülzarini əhrar qanilə...***

**Həsən bəy Zərdabi misallı, Süleyman Əfəndi misallı "məmləkət gülzarini suvaran" urvatlı söz bayraqdarları öz yerində... Çoxları redaktorlara qibtə edir. Sizcə, yaxşı redaktor kimdir?**

– Redaktorlara qibtə edənlərə redaktor olmalarını arzulayardım. Onda bilərlər... Yoxsa iynə ilə gor eşənlərə hər adam qibtə edə bilməz. Tale imkan versin, redaktor olsunlar, onda bilərlər...

Yaxşı insan yaxşı redaktor ola bilər. Mən buyurduğu əməkdaşının yerində özünü təsəvvür etməyi bacaran, kollektivin dərd-səri ilə yaşayan redaktoru yaxşı redaktor sayıram.

**– İslam müəllim, arzu edirəm ki, ağ atlı-ağsaqqal sözünüz heç zaman sınmasın! Atüstü söhbətə görə də təşəkkürümü bildirirəm.**

– İbrahimxəlil, məni mənalı söhbətə cəlb etdiyinə görə, təşəkkür edirəm. Sənin dərin məzmunlu yazıların özünüqananları çox dərindən düşünməyə vadar edir, şeirlərini demirəm hələ... Qaldı sözümün heç zaman sınmaması məsələsinə. Bu da özümüzdən asılıdır. Gərək elə söz deyəsən ki, sözün də sınmaya! İndi zaman dəyişib. Allah axırımızı xeyir eləsin!

***Söhbətləşdi: İbrahimxəlil***

# Təbrik edirik!




İyulun 22-də Gülüstan Sarayında təntənəli şəraitdə keçirilən Milli Mətbuatımızın 140 illiyi bayramında Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri, APA-nın Gürcüstan bürosunun rəhbəri, şair-publisist Nizami Məmədzadəni və Gürcüstan-Ukrayna Beynəlxalq Elmi-Tədris İnstitutunun professoru Mahmud Kamaloğlunu müəllifləri olduqları "Gürcüstanın azərbaycanlı jurnalistləri" kitabına görə Ali Media Mükafatı ilə təltif edib. Düşünürük ki, bu mükafat onlara yox, bütövlükdə Gürcüstanda fəaliyyət göstərən Azərbaycandilli mətbuatın nümayəndələrinə verilib. Onları ürəkdən təbrik edir, yaradıcılıq uğurları arzulayırıq!





***Bayramımız mübarək, dostlar!***

# Dmanisidə 7-ci dəfə Elat bayramı keçirilib



Azərbaycanlıların yığcam yaşadığı Dmanisinin Armudlu yaylağında Elat bayramı keçirilib. Elat tədbiri artıq sayca 7-ci bayramdır ki, "Borçalı" İctimai təşkilatı tərəfindən təşkil olunur. Tədbiri Borçalı İB-nin Gürcüstan nümayəndəliyinin rəhbəri İsrafil Bayramov açaraq bu bayramın ölkələrimizin mədəniyyət və birlik bayramı olduğunu bildirib. Sonra Kvemo Kartli bölgə qubernatoru Paata Xizanişvili çıxış edərək, bayramın xoş bir günə təsadüf etdiyini bildirib. O, bu gün Gürcüstan paytaxtında da 13-cü Avropa Gəncləri Olimpiya Festivalının açılışı olacağını qeyd edib. Daha sonra Dmanisi rayon icra hakimiyyətinin başçısı Qoqi Barbakadze, onun azərbaycanlı müavini Arif Süleymanov, Azərbaycan Milli Məclisinin üzvü Fazil Mustafa, Gürcüstan parlamentinin azərbaycanlı deputatı Mahir Dərziyev, Türkiyədən gələn Məhərrəm Yıldız, Dünya Qarapapaqlar cəmiyyətinin rəhbəri Seyfullah Türksoy, Dünya Ahısqa Türkləri təşkilatının rəhbərinin müavini Bürhan Özqur və başqaları çıxışlarında Elat bayramını milli bayram adlandıraraq, bu bayramın sülhə xidmət etdiyini bildiriblər. Kvemo Kartli bölgə qubernatoru Paata Xizanişvili gələcəkdə bayramın davamlı olacağını və bu bayramı dövlətin dəstəklədiyini bildirib.

Azərbaycan Milli Məclisinin üzvü Fazil Mustafa Borçalıda keçirilən bu bayramda özünü qonaq kimi hiss etmədiyini və bu bayramda iştirak etdiyindən fəxr duyduğunu bildirib: "Bu həmrəylik və dostluq duyğusu Azərbaycan və gürcü xalqı üçün vacibdir. Çünki hər iki xalq sülsevər, dostluğa və torpağa bağlı bir xalqdır. Biz bütün gücümüzü birləşdirməliyik ki, aramıza nifaq toxumu səpilməsin. Biz həmişə Qafqazın tərəqqisi üçün müsbət işlər görməliyik."



Gürcüstan parlamentinin azərbaycanlı deputatı Mahir Dərziyev azərbaycanlıların bayram sevincini, sevinmək haqqını onların əllərindən heç kimin ala bilməyəcəyini bildirib. "Bu gün burada Gürcüstan dövlətinin nümayəndələri iştirak edir, bu addıma dəyər vermək lazımdır. Bizim dostluğumuz, qardaşlığımız sülhün qarantıdır. Bu bayramı təhrif etmək lazım deyil."

Elat bayramında gürcü və azərbaycanlı gənclərin iştirak etdiyi rəqs ansamblları milli rəqsləri ifa ediblər. Sonra Qars, Borçalı aşıqları, müğənnilər müxtəlif el mahnılarını ifa ediblər. Tədbirdə at yarışları, milli güləş oyunları, gənc rəssamların sərgiləri keçirilib.

Tədbirdə İpək Yolu Media Qrupunun rəhbəri Seyfullah Türksoya Avrasiya İqtisadi Əməkdaşlıq təşkilatının "Türk dünyasına xidmət" ödülü təqdim olunub.

Bayramda Azərbaycandan, Türkiyədən, Fransadan, Gürcüstanın müxtəlif bölgələrindən qonaqlar qatılıb və bayram sevincini yaşayıblar.

Tədbirdə Bakıdan Borçalı İB-nin tədbir iştirakçılarına ünvanladığı müraciəti dinlənilib. Müraciətdə 7-ci Elat bayramının birliyin təntənəsi olduğu bildirilib.

Tədbir başa çatdıqdan sonra Elat bayramının bir qrup iştirakçıları Tiflisdə keçirilən 13-cü Avropa Gəncləri Olimpiya Festivalına qatılıblar.

Kvemo Kartli bölgə qubernatoru Paata Xizanişvili açıqlamasında 7-ci Elat bayramının keçirilməsi ilə yeni dostluq etalonunun yaradılacağını bildirib: "Biz dostluğun yeni etalonunu yaradacağıq. Bizim qardaşlığımızın kökü dərinlərə gedir və bizim ulu babalarımız bu dostluğun həmişə davam etdirilməsinə and içiblər. Bu bayramı dövlətimiz də daim dəstəkləyəcək və onun daha gözəl və mənalı keşirilməsinə kömək edəcək."

**Nizami Məmmədzadə**



# Əkbər Qoşalı: *"Şair ürəyinə təslim olandır… "*

**- Hüseyn Arifin bir sözü var: "Azərbaycan "qadan alım"dan başlayır" Əkbər Qoşalının bu fikrə yanaşması necədir?**

- Rəhmətliyin bu sözü, Qəbələli dostlarımız demiş, çöçün (qəribə) sözdür. – Mən "Mənası-mahiyyəti özündən böyük Azərbaycan" deyimini xoşlayıram, qəbul edirəm. – Azərbaycan "A"dan – dünyanın svilizasiyanın başladığı gündən, yerdən başlayır!..



**- Çox gözəl qeyd etdiniz. Əkbər Qoşalı bir şair kimi türkcəmizə yeni bir söz gətiribmi?**

- Gətirmiş ollam, əlbəttə… ancaq bu barədə məndənsə o sözləri işlədənlər, oxucular danışsa daha yaxşı olar. Yalnız onu xatırladım ki, "Altun bitik"i mən yazmışam – 2006-cı ildə…

**- Şair, rəhmətlik Səməd Vurğun ədəbi dilimizə sonor "n", "nq" səsinin gətirilməsi barədə təklif vermişdi amma, qəbul edilməmişdi. Sizcə bunun qəbul olunması nə dərəcə də doğru olardı?**

- A sağolmuş, o qədər təxirəsalınmaz üzüntülərimiz var "sağır n"mı yada düşür indi? Hələlik "cingiltili n" ilə də keçinirik. Bununla belə, nə gizlədim, şəxsən mənə qalsa, "sağır n"nın mümkün olanda yenidən öz haqq etdiyi yerə qaytarılmasını istərdim.

**- O təxirə salınmaz üzüntülərimizdən bir neçəsini senet.az-a deyin gəlsin.**

- Dövlət dilinin tətbiqi ilə bağlı küçədə, meydanda, TV-də, radioda, böyük alış-veriş mərkəzlərində və başqa yerlərdə rastlaşdığımız hallar dil üzüntüsü deyilmi? Ən əsası bu dil, bu dillə, ürəklə danışanlar hələlik Qarabağsızdır axı!..

**- Hələ İrəvansız, Göyçəsizlər demirsiz.. Şair, şeir Allahın taxtıdır deyib peyğəmbərimiz. Bəs o zaman şair nədir?**

- Peyğəmbərimizin "şeir Allahın taxtıdır" deyə bir sözü olduğunu bilmirəm – "Səhih Buxari"yə baxaram – görüm elə hədis varmı? Məncə "Quran"da elə cümlə olamamlıdır. Əgər yoxsa, bu sualına nə cavab verim?

**-Vətənə, Millətə, Sevgiyə yazılmış şeirlər eşqinə bunu belə qəbul edin və bu məqamda şair nədir sualıma cavab verin.**

- "Şair nədir?" deyil, "Şair kimdir?" sualını səsləndirəlim o zaman. Şair Ürəyinə təslim olandır… Qələmi Qəlbindən su… yox, ey, qan içəndir..

**- Ürəyinizə sağlıq, şair. Dəyərli vaxtınızı bizə ayırdığınız üçün təşəkkür edirik. Sənətlə qalın, var olun..**

- Sənətə eşq olsun! Eşqli olmaq (da) sənətdir!

*Söhbətləşdi:* **Odər Sərdar**

# Bayburtda Azərbaycan-Türkiyə qardaşlıq gecəsi keçirilib



Beynəlxalq Dədə Qorqud Festivalı çərçivəsində Türkiyənin Bayburt şəhərindəki Beşpınarda BEKDER-in təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Milli Məclisin deputatı Qənirə Paşayevanın rəhbərlik etdiyi Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin dəstəyi ilə "Qarabağdan Anadoluya könül körpüsü: Azərbaycan-Türkiyə qardaşlıq gecəsi" adlı tədbir keçirilib.

Tədbirin açılışında çıxış edən "SOCAR Turkey Enerji A.Ş."nin rəhbəri Kənan Yavuz ölkələrimizin tarixi, ədəbiyyatı, mədəniyyəti haqqında danışıb. O, hər iki ölkənin gənc nəsillərini milli mənəvi dəyərlərimizi qorumağa dəvət edib.

Qənirə Paşayeva çıxışında Azərbaycan-Türkiyə qardaşlığının tarixi köklərindən söz açıb. O, yaxın günlərdə Azərbaycanda "Qarabağdan Anadoluya könül körpüsü" layihəsi çərçivəsində Bayburt gecəsinin keçiriləcəyini diqqətə çatdırıb.

Sonra çıxış edən azərbaycanlı alim Abbas Seyidov, BEKDER təşkilatının təmsilçiləri belə tədbirlərin keçirilməsinin önəmindən danışıblar. Tədbirin təşkilatçılarına Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı və folkloru ilə bağlı kitablar və hədiyyələr verilib.

Azərbaycan gecəsi konsert proqramı ilə davam edib.

# «Sonsuz dəhliz» filmi iki mükafat qazandı

***Litvalı rejissor Aleksandras Brokas-ın Xocalı haqqında çəkdiyi «Sonsuz dəhliz» («Endless Corridor») filmi iki nüfuzlu mükafata layiq görülüb.***




Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin Avropa Azərbaycan Cəmiyyətinə istinadla yaydığı xəbərə görə, iyulun 10-da Madrid və Tenerife Beynəlxalq Film festivalları «Sonsuz dəhliz» filmini «Ən yaxşı sənədli film» və Aleksandras Brokas-ı «Ən yaxşı sənədli film rejissoru» nominasiyası üzrə qalib elan edib.

İndiyədək «Sonsuz Dəhliz» filmi dünyada keçirilən 60-dan artıq kino festivalına təqdim edilib. Çoxları bu filmi artıq rəsmi proqramlarına daxil ediblər.

Filmin premyerası ötən il iyulun 1-də Londonda Britaniya Film və Televiziya İncəsənəti Akademiyasında (BAFTA) keçirilib.

«Sonsuz dəhliz» sənədli filmi prodüserlər - Aleksandras Brokas (Litva) və nüfuzlu «Grammy Award» mükafatçısı Gerald Rafshoon (ABŞ) tərəfindən çəkilib.

# EDUARD ŞEVARDNADZE BARƏSİNDƏ SƏNƏDLİ FİLM

Bu günlərdə Tbilisidəki Şota Rustaveli adına Dövlət Akademik Dram Teatrında «An, işgəncə, anililik» adlı sənədli filmin təqdimatı olub. Filmin təqdimatında hökumətin və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Film keçmiş SSRİ-nin xarici işlər naziri, sabiq Gürcüstan prezidenti Eduard Şevardnadzenin keçdiyi ömür yoluna, siyasət aləmində fəaliyyətinə həsr olunub. Bu film Gürcüstanın «İmedi» televiziya kanalında yayımlanıb. Eduard Şevardnadzenin memuarlarına əsaslanan bu filmin prordüsseri onun qızı Manana Şevardnadzedir, ideya müəllifi və rejissoru isə Nanuka Kiknadzedir.



Filmdə «Böyük ipək yolu» layihəsi barəsində də danışılır. Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevlə Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadze arasında sıx əlaqələrin yaranması, bu əlaqələrin dostluğa çevrilməsi artıq hamıya məlumdur. Burada Eduard Şevardnadze qeyd edir ki, hələ SSRİ-nin xarici işlər naziri olan zamanlar Vladisvostokda bu layihə barəsində söz açıb. Bu layihənin həyata keçirilməsində dostu Heydər Əliyevin mühüm rol oynadığını qeyd edir. Sonra Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin bu layihə üzrə tez-tez görüşlərindən, birgə fəaliyyətindən danışır.

Manana Şevardnadze bu barədə deyib: «Eduard Şevardnadzenin memuarları 2004-cü ildə nəşr olunub. Məhz elə filmin bütün mətni oradan götürülüb. Bu, sənədli filmdir, burada çoxsaylı foto, video, kinomaterial toplanılıb. Bu, faktiki olaraq Eduard Şevardnadzenin bütün həyatıdır».

Bu sənədli filmə baxan Gürcüstanın ədliyyə naziri Tea Tsulukiani isə belə deyib: «Bu, təkcə onunla işləyən nəsil üçün deyil, həm də yalnız bizim ölkənin siyasi tarixini deyil, eləcə də Şevardnadzenin beynəlxalq əlaqələrin inkişafında hansı rol oynadığını bilməli olan gənc nəsil üçün də həddindən artıq mühüm tarixi materialdır».

Onu da qeyd etmək lazımdır ki, Eduard Şevardnadze uzun sürən xəstəlikdən sonra 2014-cü il iyulun 7-də, 86 yaşında dünyasını dəyişmişdir. Son illər o keçmiş Krtsanisi iqamətgahında yaşayırdı və elə orada da həyat yoldaşının yanında dəfn olunub.

**Mirzə Məmmədoğlu**

# Süsən-Sünbüldə söz azadlığı və sancı dərmanı

## *(verifikasiya)*

"Ax, ax!.. Mənim dünyadan xəbərim yox imiş! Şükür edirəm Allaha ki, təzə yazıçılarımızın bərəkətindən mənim gözlərim də açıldı və o şeyləri ki, mən bilmirdim – indi bildim... yoxsa zənnim həqiqətdə batil imiş".

Bunları Mirzə Cəlil 1908-ci ildə, özü də şəhri-Tiflisdə yazıb.

İndi mən – əlbəttə, "bəzi yazarlarımızın bərəkətindən gözlərim açıldı" mənasında – əvvəlcə sancı dərmanından başlamaq istəyirəm. Məsələ belədir: düz iki aydır ki, Mirzə Qotur da, Mirzə Mikrob da Süsən-Sünbüldə sancı dərmanı axtarırlar. Çünki çox sancılanırlar. Kimi deyir: qarpız çıxıb – qaraboğaz qarpızdandır, kimi də deyir ki, pinq-ponq pomidordandır, kimi də belə söyləyir: nə qarpız? nə pomidor? Səbəb söz azadlığında imiş. Yəni Mirzə Qotur da, Mirzə Mikrob da iddia edirlər ki, bəs deməzsənmi, Süsən-Sünbüldə ömürbillah söz azadlığı olmayıb. Onlara qarşı çıxan Mirzə Qələm də, təmkinini poza-poza cavab qaytarır ki, siz nə danışırsınız? Məgər Süsən-Sünbül də demokratik Gürcüstanın bir parçası deyilmi? Necə ola bilər ki, misal üçün, Qoridə, Borjomidə, Batumidə söz azadlığı olsun, amma Süsən-Sünbüldə olmasın? Ümumdünya Söz Azadlığı Əmsalı *(Worldwide Press Freedom İndex)* müəllifləri eşidəndə deməzlərmi ki, nədən Gürcüstandakı gürcüdilli mətbuatda söz azadlığı var, amma azərbaycandilli mətbuatda söz azadlığı yoxdur?

Onda Mirzə Qotur da, Mirzə Mikrob da Mirzə Qələmə deyirlər ki, bir halda ki, Süsən-Sünbüldə söz azadlığı var, bəs sən nədən öz qəzetində bələdiyyə başçısına söyə bilmirsən? Onun atına bircə dəfə "eşşək" de görüm, deyə bilirsənmi? Ya da qatığına – əlbəttə, ağ qatığına – bircə yol "qara" yaz görüm, yaza bilirsənmi?

Mirzə Qoturun da, Mirzə Mikrobun da söz azadlığını öz bildikləri kimi o cür yelbeyin yozmaları öz yastıyapalaq yerində: yəni onların düşüncəsi narazılıq çərçivəsindən kənara çıxa bilmir; daim gileylənirlər, narazılıqlarını bildirirlər, tənqidbazlıq-kritikanlıq edirlər. Bəzi "Avropa standartları"da arada-sırada belə əndər-döndərliyi, bu cür moltanılığı xülaseyi-kəlam xoşlamırmı?



Elə ki, Amerika – ABŞ nəzərdə tutulur – eynicinsli nikahlara icazə verdi, yəni bəyan eylədi ki, indən belə kişi kişi ilə, qadın da qadınla (əstəğfürullah!) evlənə bilər, onda az qalmışdı ki, Mirzə Qoturla Mirzə Mikrob Tiflisin göbəyində oturan bəzi Avropa təmayüllü humanitar təşkilatların köməyi ilə Amerikanın "taxometr" təşəbbüsünü müdafiə edələr. Amma cəmi Gürcüstandakı bəzi bəsirət dolu bəşəri bəyanatlar onları sünbülvarı susdurdu. Yoxsa kiminsə əlindən qəza da çıxa bilərdi: axı Süsən-Sünbül namus məsələsində çox həssasdır...

O necə deyərlər, Platon mənə hər nə qədər yaxın olsa da, həqiqət ondan daha yaxındır. Yəni Mirzə Qoturla Mirzə Mikrobun axtardıqları sancı dərmanı heç də mərhum Mir Cəlalın yazdığı "Hacı Kərim ağanın sancı dərmanı"ndan deyilmiş. Yoxsa bu müasirlikdə, mühakiməlilikdə "Hacı Kərim ağanın sancı dərmanı"nı tapmağa nə vardı ki? Tetrasiklin misallı, yəni tetrasiklinin oxşar təyinatı misallı, içərdilər; sancı da çıxıb gedərdi daha mühüm və şeşxana işlərinin dalınca!

Amma gərək Ümumdünya Söz Azadlığı Əmsalı müəlliflərinin bəziləri (hamısının nə günahı?) qarşısında poz verəsən, ədl-ədalət əzilib-büzüləsən ki, bəs deməzsənmi, Süsən-Sünbüldə söz azadlığının da, insan haqlarının da müdafiəçiləri-müvəkkilləri məhz Mirzə Qotur və Mirzə Mikrobdur!

Mən milli mətbuatımızın 140 illiyi dönəmində Mirzə Qotura və Mirzə Mikroba bu qədər "inkarçı", bu boyda kinli olmaları və yaratdıqları kin bataqlığında boğulmaları müqabilində unudulmaz Üzeyir Hacıbəylidən iki sitat da gətirməli oldum:

*1.Bazara çıxıb və ya bir məclisə girib, xalqı söyüb biabır eləməyə hürriyyəti-kəlam deməzlər.*

*2.Qəzeti həlim aşının qazanı bilib, ələ gələni içinə doldurmağa və ağzına gələni ona yazdırmağa hürriyyəti-mətbuat deməzlər.*

...Burası da var ki, mən də eynən dünyalarca məşhur Volter və Süsən-Sünbülcə məşhur Mirzə Qələm misallı, Mirzə Qoturun və Mirzə Mikrobun əksər fikirləri ilə razı olmasam da, onların bəzi fikirlərinin səsləndirilməsi üçün mümkün şəraiti yaratmaq yolunda – mübaliğə olmasın – Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın yeganə bircə kömbə çörəyimdən də keçərdim! Çünki mən də "İnsan hüquqlarının ümumi bəyannaməsi"nin bir parçası deyiləmmi? O da ola söz və mətbuat azadlığı hüquqları!..

Təki Mirzə Qoturun və Mirzə Mikrobun sancısı kəssin! Təki onların qırxbuğum qarınları sancıdan doğranmasın!..

**P. S.**

***Arada-sırada soruşurlar ki, Mirzə Cəlil "quli-biyabanlar"dan, "şor"dan, "tərəkəmə"dən (qarapapaq), "mikroblar"dan, "yadigari-həzrət İbrahim Xəlil"dən, "bambılılar"dan, "qondarma bəylər"dən yazdığı halda, niyə Süsən-Sünbüldən yek kəlmə də yazmayıb? Axı necə ola bilərdi ki, Tiflisdə yaşayıb işləyə-işləyə Tiflisdən o qədər də uzaqlarda yerləşməyən Süsən-Sünbülü bu qədər arazbarı unudaydı?***

***Bilmirəm...***

***Amma indi eşidəndə ki, Mirzə Qoturla Mirzə Mikrob belə bir tayqulaq təşəbbüs qaldırıblar ki, bəs deməzsənmi, milli mətbuatımızın ad günü "Əkinçi"nin işıq üzü gördüyü 1875-ci ilin 22 iyulundan deyil, "Tiflis-əxbarı"nın çıxdığı 1832-ci ilin yanvarından hesablansın! Belədə onların sancılarının kəsmək ehtimalı ikicanlı olurmuş...***

***Görünür, hansı minvalla ki, "Tiflis əxbarı" o dövrdə rusca buraxılan "Zaqafqazski vestnik" qəzetinin azərbaycanca əlavəsi idi, yəni necə ki, on doqquzuncu əsrin birinci yarısında əldən ancaq kiminsə əlavəs-artığı olmaq gəlirdi, eynən həmin minvalla, bu gün Mirzə Qotur və Mirzə Mikrobun əlindən də "Hacı Kərim ağanın sancı dərmanı"nın əlavəsinə ehtiyaclı olmaq gəlirmiş... Nə yazıq!***

**İbrahimxəlil**

# Elimizin alim oğlu

*"Ömrünü elmə həsr edən adam heç vaxt ölmür".*
**Həz. Məhəmməd (s.)**

*Rütbələr içində seçilir biri,*
*Hamıdan ucadır alimin yeri.*
**(N.Gəncəvi)**

Əziz və qədirbilən oxucular! Ulu Borçalımız öz tarixi boyu cəmiyyətə müxtəlif sahələr üzrə onlarca tanınmış şəxsiyyətlər, ziyalılar, dünya elm aləminə töhfələr verən alimər, yazıçılar, şairlər, ictimai xadimlər vermişdir. Onların haqqında zaman-zaman onlarca, yüzlərcə məqalələr, kitablar, monoqrafiyalar, bədii əsərlər yazılmışdır. Onları bir yerə toplayıb yenidən çap etmək mümkün olsaydı çoxsaylı, böyük həcmli cildlər yaranardı.

Mən də Borçalı torpağının havasını udan, suyunu içib böyüyən, ərsəyə gələn, ömrünün yarım əsrdən çox hissəsini pedaqogika elminin inkişafına, müəllim kadrlarının yetişməsinə həsr etmiş, tanınmış alim, eloğlum Kərim Məmmədovun mənalı həyat yolu haqqında bəzi məlumatları Siz oxucuların nəzərinə çatdırmağı özümə mənəvi borc bilirəm. Müqəddəs peyğəmbərimiz Həzrəti Məhəmməd (s.) insanlara tövsiyə etmişdir ki, alimlərə hörmət edən şəxs elə bil mənə hörmət edir.

**Kimdir Kərim Məmmədov?**

Düz 65 il bundan əvvəl doğulduğum Dəllər kəndində ibtidai məktəbi bitirib təhsilimi davam etdirmək üçün Bolnisi rayonunun Aşağı Güləver səkkizillik məktəbinə getdim. Sinfimizdə qarabəniz, nisbətən boyca balaca, ancaq zirək və hazırcavab bir uşaq var idi. Onun hazırcavab, mehriban olması məni özünə cəlb etdi. Bir-birimizə qaynayıb-qarışdıq, dostlaşdıq. Bu arıq, çəlimsiz uşaq həmin kəndin, obanın balası Kərim Alı oğlu Məmmədov idi. Bir neçə ildən sonra yollarımız ayrıldı. O, orta təhsil almaq üçün rayonun Darvaz, mən isə Arıxlı orta məktəbinə yollandıq. Bu ayrılığa baxmayaraq, ara-sıra bir-birimizlə görüşdük. Hərə təhsil aldığı məktəb və müəllimlər haqqında öz fikirlərini danışır, əlaqələrimiz daha da istiləşirdi.

Qısa bir xülasə: Kərim Məmmədov 1958-ci ildə orta təhsilini başa vuraraq Bakıda M.F.Axundov adına rus dili və ədəbiyyatı institutuna qəbul olundu. Oranı 1963-cü ildə müvəffəqiyyətlə bitirərək öz doğma kəndində rus dili və ədəbiyyatından dərs deməyə başladı. Gənc kadr öz peşəsinə, məktəbin bütün ictimai işlərinə canı-dillə yanaşdığına görə 1964-cü ildə onu Babakişilər kəndindəki səkkizillik məktəbə direktor təyin etdilər. Bir neçə il işlədi, vicdanla işlədi. Məktəbdə təlim-tərbiyə, təhsil işinin səviyyəsinin yüksəlməsində böyük dönüş yaratdı, kollektivin, el-obanın hörmət və məhəbbətini qazandı. Ancaq onun fikri bununla kifayətlənmək, kənddə qalmaq deyildi. Atalar demişkən: "Niyyətin hara, mənzilin də ora". Onu qabaqda çox işlər gözləyirdi. Alim olmaq, böyük amallar yolunda çalışmaq, xalqa, elmə daha çox xeyir vermək istəyi daima onu narahat edirdi. Ona görə də ali təhsil aldığı elm ocağına üz tutdu. Onu orada dərs aldığı müəllimlər gözləyirdi. Doğrudur, çox çətinliklərlə qarşılaşdı, ancaq dözdü. Nahaqdan deməyiblər ki, elm axtarmaq xatirinə evini tərk edən adam Allaha sarı yol gedir. Dissertant kimi mövzu götürdü, gecə-gündüz çalışdı. Böyük tanınmış alimərlə daima sıx ünsiyyətdə oldu, daha da günü-gündən püxtələşdi. Uzun yuxusuz gecələr, aylar, illər gəlib keçdi. Nahaq deməyiblər ki, çətin günün ömrü az olar. Kərim müəllim möhkəm polad iradəsinin, elmə olan sonsuz həvəsinin nəticəsində 1980-ci ildə Tiflisdə Qoqebaşvili adına ETİ-da "Siyasi ədəbiyyatın mənimsənilməsi əsasında şagirdlərin vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsi" mövzusunda elmi işini çox ləyaqətlə, yüksək səviyyədə müdafiə edərək pedaqogika elmləri namizədi adına layiq görüldü. Bir müdrik kəlamda deyildiyi kimi, elm yolunu seçən insana Allah da behiştə sarı bir yol açır. Kərim müəllim də elm yolunda öz ilk pilləsinə belə yol açdı. İşlədiyi M.F.Axundov adına rus dili və ədəbiyyatı institutunun Pedaqogika kafedrasının dosenti kimi fəaliyyət göstərməyə başladı.

Elm adamları adətən bir pillədə dayanıb qalmaq istəmir. O da bununla kifayətlənmədi. Yenə də elm yolunda çalışmaq arzusu onu rahat buraxmırdı. Bu arzu doktorluq dissertasiyası yazmaq idi. Yenə də qarşıda çətin günlər, yuxusuz gecələr, kitabxanalarda çalışmaq, yeni fikirlər söyləmək lazım idi. Həvəslə "Ümumbəşəri dəyərlərin mənimsənilməsi əsasında yuxarı sinif şagirdlərinin elmi dünyagörüşünün formalaşması" mövzusunda doktorluq işinin tədqiqinə başladı.

Doktorluq dissertasiyasının mövzusunu ötən əsrin 82-ci ilindən müəyyənləşdirdi. Mövzu aktual olduğundan ümumittifaq koordinasiya planına daxil edildi. SSRİ Pedaqoji Elmlər




Akademiyasının "Tərbiyənin ümumi Problemləri" Elmi-Tədqiqat İnstitutu onu əməkdaşlığa dəvət etdi. Bu əməkdaşlıq onun yaradıcılığında əhəmiyyətli rol oynadı. Onun elmi sessiya və konfranslardakı çıxışları rəğbətlə qarşılandı.

Doktorluq dissertasiyasını 1993-cü ildə bitirsə də, onun müdafiəsinə süni əngəllər yaradanlar da tapıldı. Mətbuat vasitəsilə layiqli cavablarını alan "opponentlər" susduqdan sonra Kərim Məmmədov 2008-ci ilin oktyabrında doktorluq dissertasiyasını da müvəffəqiyyətlə müdafiə edərək pedaqogika üzrə elmlər doktoru alimlik dərəcəsi qazandı.

O, hal-hazırda Bakı Slavyan Universiteti "Pedaqogika və psixologiya" kafedrasının professorudur. Azərbaycan prezidenti yanında Ali Attestasiya Komissiyasında dörd il ekspert kimi fəaliyyət göstərmiş, onlarla namizədlik və doktorluq dissertasiyalarına ekspert rəyi vermişdir.

Tələbə Qəbulu Dövlət Komissiyasında pedaqogika üzrə eksperti kimi yüzlərlə test tərtib etmiş, təqdim olunmuş testləri ekspertizadan keçirmiş, həm də rus dilinə tərcümə etmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində Elmi-Metodiki Şuranın eksperti olaraq neçə-neçə tədris vəsaitlərinə proqramlara ekspert rəyi vermişdir.

Yenə də gənclik eşqi ilə çalışır.

Kərim Məmmədovun rus dilində üç monoqrafiyası, azərbaycan dilində iki tədris vəsaiti çapdan çıxmışdır. Onun "Şərq pedaqoji fikir tarixindən" adlı çap etdirdiyi tədris vəsaiti Anadolu türkcəsinə uyğunlaşdırılaraq 2014-cü il İstanbulun Çağdaş Mətbəəsində çap edilmişdir. Onun "Elmi-tədqiqat işlərinin metodikası" adlı dərs vəsaiti də Anadolu türkcəsinə çevrilmiş, çap edilmək üçün müzakirəyə təqdim edilmişdir.

Hal-hazırda bu dərs vəsaiti əsasında Azərbaycanda bir sıra ali məktəblərin magistratura pilləsində tədris prosesi həyata keçirilir.

Kərim Məmmədovun 100-dən çox elmi, publisistik məqalələri Rusiyada («Народное образование» jurnalı), Gürcüstanda ("Sazrisi"), Türkiyədə "Doğu pedaqoji fikir tarihinden", Azərbaycanda müxtəlif qəzet və jurnallarda dərc edilmişdir.

Alim 10-dan çox magistr və doktorant yetişdirmiş və yenə də yetişdirməkdədir. Onların əksəriyyəti Türkiyə vətəndaşlarıdır.

Ə.Cami demişkən:

*Sözün, qəlbin, işin əgər olsa düz,*
*Sən öz istəyinə çatarsan sözsüz.*

Sənin istəyin, arzun, amalın da bu idi, buna da nail oldun, Kərim müəllim!

Professor yenə də yazır, qəzet və jurnallarda aktual məsələlərə aid öz fikirlərini bildirir. Elmi, pedaqoji-metodik yığıncaqlarda çıxış edir, problemli məsələlərdə təkliflərini bildirir.

Onu da oxuculara çatdırmaq istəyirəm ki, alim qardaşım heç də elmi-pedaqoji işlərlə kifayətlənib qalmır, hərdənbir bədii yaradıcılıqla da məşğul olur, poeziya aləminə baş vurur, gənclik dövrlərində gəzib dolaşdığı yerləri, dağları, qocalığını da təsvir edən, ruhları oxşayan şeirlər və ibrətli təmsillər də yazır.

O, Azərbaycan poeziyasını, klassiklərin şeir yaradıcılığını gözəl bilir, şeiri, sənətkarı yüksək qiymətləndirir. Borçalıda yazıb-yaradan şairlərin, nasirlərin yaradıcılığını daim izləyir, qürur hissi keçirir.

Professorun ali təhsili rusca olsa da, azərbaycan dilində şeir yazmağa meyl göstərir. Onun şeir dünyasından bir neçə nümunəni Siz oxuculara çatdırmağı lazım bilirəm. Əminəm ki, bunlar poeziya sevənləri ovsunlayacaq, ruhuna sığal çəkəcək:

Şeirləri mənə verəndə o, təvazökarlıqla dedi: "Birdən oxucular elə düşünər ki, mən şair olmaq eşqinə düşmüşəm. Yox! Şair olmaq üçün şair ömrü yaşamaq lazımdır. Mənim üçünsə artıq bu gecdir.

Mən də ömrünün 75-ci ilini yaşayan alim qardaşıma uzun ömür, möhkəm cansağlığı, sönməz həvəs, elmi-pedaqoji və bədii yaradıcılıq sahələrində uğurlar, 85-95-ə və yeni elmi fəxri adlara doğru inamla addımlamağı arzu edirəm. Səni elm tanıdıb, elm məşhurlaşdırıb, əzizim Kərim müəllim! Yazımı Şərqin mütəfəkkir şairi Qəznəvinin sənə yaraşan bir beyti ilə tamamlayıb nöqtəni qoyuram:

*Naz-nemət yaradan elmdir, bəli,*
*İnsanı ucaldır elmi, əməli.*

**Təhməz Abbasov**
***filoloq, əmək veteranı***

**Redaksiyadan:**
*Kərim müəllimin şeirlərini ədəbiyyat səhifəmizdə oxuya bilərsiniz.*

## Əsəd Mirzəyev – 75

# Dostluq körpüsü

***Söhbət I Kosalı Mədət ağadan və mənim atam Hüseyndən gedir.***

"Dostluq körpüsü" axırda ailəvi körpüyə çevrildi. Lejbədin – I Kosalı Aşağı Qullar Körpüsü! Dostluğu qiymətləndirmək və qoruyub-saxlamaq lazımdır. Böyük türk dünyasının xilaskarı Atatürkün "Dostluq iki ayrı-ayrı bədəndə bir ruh kimidir, dostluğun dava etməsi üçün də hər iki dostun bir-birini qiymətləndirib hörmət etməsi vacibdir" kimi müdrik ifadəsi nə gözəl deyilmişdir.

Yaxşı dost tapmaq asandır, onu qoruyub saxlamaq, doğmalaşdırmaq milyon qat çətindir. Dost könül sirdaşı, dar, gen günlərdə yanında olandır. Dost böyük məfhumdur. Həcər xanım Əlizadə Şəmsi müəllimin ömür-gün yoldaşı olub. O, 1912-ci ildə Gürcüstanın I Kosalı kəndində Mədət ağa ilə Ayan xanımın ailəsində dünyaya göz açıbdır. Həcər xanımın Şəmsi müəllimlə üç uşaqları – Xalid, Nadejda, Aysəba dünyaya gəlmişlər. Həcər xanıma çətin və ağır həyat qismət olmuşdur. O, bu çətinliyə sinə gərərək övladlarını oxutdurmuşdur.



Aysəba xanım Şəmsi qızı Əlizadə 1941-ci il martın 29-da Borçalının Lejbədin kəndində bəy nəsli ziyalı ailəsində anadan olmuşdur. Atası Şəmsi Əlizadə Borçalının yaradıcı ziyalılarından idi. Əlizadə Aysəba orta məktəbi bitirəndən sonra Bakıda təhsil alan bacı-qardaşının yanına gəlir. Sənədlərini universitetin filologiya fakültəsinə verir. Universiteti bitirdikdən sonra öz ixtisası üzrə əmək fəaliyyətinə başlayır və 1966-cı ilin noyabrında bir qrupda oxumuş, Qara Təhlədən olan Əsəd Mirzəyevlə ailə qururlar. Yeni həyat quruş hər iki gənc 1967-ci ildə Moskva İqtisadiyyat-Statistika institutunun məqsədli aspiranturasına daxil olurlar. Əsəd Mirzəyev Moskvada 3 illik aspirantura dövrünün başa vurduqdan sonra müdafiə edib, Bakıya qayıdır. Mirzəyev Əsəd Məzahim oğlu 21 iyul 1940-cı ildə Qardabani rayonunun Qaratəhlə kəndində anadan olmuşdur. 1958-ci ildə Qaracalar orta məktəbini əla qiymətlərlə bitirmişdir. 31 dekabr 1970-ci ildə namizədlik disertasiyasını müvəffəqiyyətlə müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsinə yiyələnir. 1971-ci il mart ayının 1-dən etibarən D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "iqtisadi kibernetika" kafedrasında müəllim, baş müəllim və dosent vəzifəsində çalışır.

1978-1983-cü illər ərzində dosent kimi "iqtisadi kibernetika" kafedrasının müdiri vəzifəsində çalışır. 1994-cü ildən 1997-ci ilə kimi Azərbaycan Dövlət İqtisad İnstitutunun ödənişli təhsil fakültəsinin dekan müavini vəzifəsinə təyin olunur. Əsəd müəllim indiyə kimi Azərbaycan dövlət iqtisad universitetinin Tədris-Metodik Mərkəzinin direktoru vəzifəsini daşıyır. Saya bildiklərimiz bu qədərdir. Siz əzəmətlisiniz, Əsəd müəllim!

Belə bir xüsusiyyətə malik insanın onun bacarıqlı, bir kadr kimi müxtəlif dövrlərdə 4 rektorla eyni vəzifəni apara bilməsi bir mütəxəssis kimi qabiliyyətindən xəbər verir. Əsəd müəllim təkcə elm və təhsil fədaisi deyil, elinə-obasına bağlı, qohum-əqrəba, dostluğu sevən bir insandır. Gözəl atadır, babadır. Əsəd müəllimlə Aşağı Qullar dostluğu Aysəba xanımla ailə qurduqdan sonra başlayır. Onda əvvəl qaynənəsi Həcər xanım, İsrafil müəllim, Bala bəy, Həcər xanım, bacıları Təhminə xanımın, Hamayıl xanımın, Aysəba xanımın, dayısı oğlu Mustafanın bizim ailə ilə dostluğumuz var idi. Bu dostluq atam Hüseynlə - Mədət ağa ilə, anam Gövhər ilə Ayan xanımla bir-birinə olan gözəl münasibətdən əmələ gəlmişdir. Mən Əsəd müəllimi qiyabi olaraq tanıyırdım, adını eşitmişdim. Ancaq bir-birimizi tanımırdıq. Əsəd müəllim haqqında mənə onun tələbə yoldaşı alim, siyasi iqtisad elmləri namizədi Poladov Aslan Nəbi oğlu məlumat vermişdir.

Ancaq məndən əvvəl, anam Gövhər və kiçik qardaşım Şəmistan Əlizamanlı onu gözəl tərbiyəli, ziyalı, əsil qohum və müəllim kimi tanıyırdılar. Mən çox arzulayırdım Əsəd müəllimlə görüşəm. Allah ölənlərə rəhmət eləsin. Qəbirləri nurla dolsun. Amin!

Aysəba xanımın xalası oğlu Aşağı Qullarlı Sadıq rəhmətə getdi. Qarlı-boranlı bir gün idi. Mən hiss eyləyirdim ki, mütləq Əsəd müəllim dəfn mərasimində iştirak etmək üçün Bakıdan Aşağı Qullara hüzr yerinə gələcəkdir. Elə də oldu və və biz çox mehribanlıqla görüşüb ayrıldıq. Bir-birimizdən çox razı qaldıq. O, məndən rəhmətə getmiş alim yoldaşı Poladov Aslan Nəbi oğlunun ailəsini soruşdu, qızlarının ailə qurmaları ilə maraqlandı. Mən ona məlumat verdim ki, Poladov Aslan Nəbi oğlu Marneuli rayonunun Axlı-Lələ kəndində dəfn olunubdur. Həyat yoldaşı durur. Qızları ali təhsil alıblar, ailə həyatı qurublar. O, mənim bu sözümdən sevindi. Mən həmin dəqiqə hiss eylədim - doğrudan da əsl dostdur, ziyalıdır, alimdir. Gözəl insandır, Əsəd Mirzəyev. Müəllim və ideal müəllimdir Əsəd müəllim. Başqalarına örnək olan dəyərli bir ziyalıdır, şəxsiyyətdir. Sözün əsl mənasında ibrətlik kəlamları, ümumi bəşər amalları ilə seçilən, cəfakeş bir təhsil fədaisidir. Ulu Borçalının fəxridir. Dostum, qardaşım Əsəd Mirzəyev. Mən bu dostluqla fəxr edirəm. Bu dostluq körpüsünü əvvəlcədən yaradanlara Allahdan rəhmət diləyirəm. Var olsun! Aşağı Qullar – I Kosalı – Lejbədin Körpüsü!

Və fürsətdən istifadə edib gözəl insan, əsl ziyalı mədəni insan həqiqi dost Əsəd Mirzəyevi 75 illik yubleyi münasibətilə təbrik edib, ona can sağlığı, uzun ömür, uşaqlarına, nəvələrinə, həyat yoldaşı Aysəba xanıma gözəl günlər arzulayıram. Gözəllik həmişə sizinlə olsun. Gün o gün olsun 100 illik yubileyini təbrik edim. Var olsun. Qohumluq, Dostluq!

Hörmətli oxucular, öz fikrimi Əsəd Mirzəyevin, öz həyat yoldaşı Aysəba Əlizadəyə həsr etmiş şeiri ilə bitirmək istəyirəm:

**Qocalıram demə, gülüm!**

*Üç oğlanın anasısan,*
*Odlarına yanasısan,*
*Bircə qızın yoxluğundan,*
*Qocalıram, demə, gülüm!*

*Bağça-bağın qoşa-qoşa,*
*Ömrü vuraq birgə başa,*
*Çox gəzəndə incimədən,*
*Qocalıram, demə, gülüm!*

*Yaşın sənin ötməyibdir,*
*Cavanlığın keçməyibdir,*
*Saçlarına düşən dəndən,*
*Qocalıram, demə, gülüm!*

*Məhəbbətin aşıb-daşır,*
*Gözəlliyin şölə saçır,*
*Ərinin sən kürlüyündən,*
*Qocalıram, demə, gülüm!*

*Aylar keçib, illər ötüb,*
*Həyat solub, sona yetib,*
*Bəlkə ömür hədər gedib,*
*Düşünürəm, demə, gülüm!*

**Əmiraslan Əlizamanlı**
***Marneuli, Aşağı Qullar kəndi.***

## Mövqe

# "Ay nadan balam"



Səadət Buta

1984-cü ilin yayında Başkeçiddə "Dmaniso-ba" keçirildi. E.A.Beridze Dmanisinin birinci katibi idi, bayramı da o keçirirdi. Bakıdan çoxlu qonaqlar, o cümlədən, xalq şairi Hüseyn Arif də gəlmişdi. Bayram çox gözəl keçirildi, bəlkə də on qara zurna, nağara dəstəsi var idi. Hüseyn Arif valeh oldu və dedi ki, Başkeçiddə çox gözəl qədim milli havalar var. Katibdən xahiş elədi ki, sən bir maşın ver, Buta onları toplayıb gətirsin Bakıya. Katib mənə maşın verdi, bir nümayəndə də qatdı yanıma. Mən bütün kəndləri dolaşdım, hətta Bolnisinin kəndlərinə də keçdim. Topladıqlarımın bir qismini Eldar İsmayılın qardaşı Göycəyə verdim. Oxşamalar, ağılar, tapmacalar, alqış-qarğış yanıltmaclar, bir neçə Başkeçid xalq mahnılarını da vermişdim. O gündən bu günə qədər harda bir yaşlı qarı, qoca gördüm, söylədib yazıram. Məndə çoxlu zurna havaları var, eləcə də "Ay nadan balam". Başkeçidin zurna havası olub. Gəyliyənli usta İbrahimin dediyinə görə, onu ilk dəfə olaraq hamamlı Alı Qara çalıb, sonra İbrahim (ona Keçəl deyirdilər). Bir də onu Darvaz Kor Alı çalıb. Havanın adını, çalınma qaydasını mənə usta İbrahim verib və havanın necə yaranmasını nağıl edib. Mən havanın Keçəl tərəfindən unudulan bəndlərini özüm yazmışam. Keçəl bir bəndini söyləmişdi.

**"Ay nadan balam"**

Keçmiş zamanlarda Dəmirçihasannıda bir dul qadının bir oğlu var imiş. Oğlan ağıllı-kamallı, hamının hörmətini qazanmış bir gənc imiş. O, qonşu qızını sevir. Qızın atası görürü ki, o qızını verməsə, el onu qınayacaq. Ona görə də hiyləyə əl atır. Oğlanı yanına çağırıb deyir: sən get Səmərqəndə, işlə, başlıq parası gətir, mən də sənin toyunu eyləyim. Qızımı səndən artığına verməyəcəm ki?! Oğlan səfərə çıxan kimi, kənddə çalınan toyların birində qızın atasının razılığı ilə onu varlı bir kişinin oğlu qaçırdır. Oğlanın anası hər gün Dəmirçi təpəsinə çıxıb yana-yana oxuyarmış:

*Ay nadan balam, ay nadan,*
*Bal dadan balam, bal dadan.*

Mən mahnının sözlərini də, musiqisini də həmyerlim Mehman Dağlaroğluna verdim. Oxumaq qaydasını da öyrətdim. Xınayaxdıda dediyim oxşamaları, bayatıları da verdim. Mehman həmin havanın adını "Ay nadan gözəl" deyib oxudu. Mahnı ayaq tutdu. Mehman mənim yazdığım bir bəndi götürüb qalanını xınayaxdıda dediyim bayatılara qatıb oxudu. Ondan sonra həmin mahnını Dursun Yırğancaylı oxudu. İndi həmin mahnının "müəllifləri" çoxalıb. Başkeçidin yaşlı nəslinin nümayəndələri bilir ki, "Ay nadan balam" xalq havasıdır – qara zurnada. Ona görə də, mən heç kəsə etibar edə bilmirəm. Hamı mənəm-mənəm deyir. Gözəl, yadda qalan zurna havaları "Ay nadan balam", "Güllü çay", "Şallı gəl", "Tbilisi", "Ay yaz gülü, yaz gülü", "Əsgərlikdən yar gəlib", "Dağlar qızı", "Şahgəldi", "Qız, babamın qarısı gözəl", "Qurban olum Çıldıra", "A dağların sonası", "Ağca yetər", "Bacanaq", "Əmim oğlu" və s. "Ağca yetər" və "Bacanaq" mahnısının sözlərini də mən yazmışam.

**Ay nadan balam**

*Ömür gündən tən olmaz,*
*Qürbətdən vətən olmaz,*
*Yar yarından gen olmaz,*
*Ay nadan balam, ay nadan,*
*Bal dadan balam, bal dadan.*

*Bənövşəni dərdilər,*
*Dərib yerə sərdilər,*
*Zorla yada verdilər,*
*Ay nadan balam, ay nadan,*
*Bal dadan balam, bal dadan.*

*O toyda top atdılar,*
*Toyu toya qatdılar,*
*Yarını apardılar,*
*Ay nadan balam, ay nadan,*
*Bal dadan balam, bal dadan.*

# Tanınmış şair Nizami Paşa Saraclının 65 illiyi qeyd edilib

*Marneulidəki "AtaHoldingCenter"də Azərbaycanlıların Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə Bolnisi rayonunun Saraclı kənd sakini, AYB-nin üzvü, şair Nizami Paşa Saraclının 65 illik yubileyi qeyd olunub.*



Yubiley tədbirini Gürcüstanda nəşr olunan "RegionPress" qəzetinin redaktoru Binnət Əlioğlu açaraq şairin 20 kitab müəllifi olduğunu, Azərbaycanda müxtəlif vəzifələrdə çalışdığını, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin mayoru kimi istefada olduğunu bildirib: "Nizami Saraclı Qarabağ döyüşlərində iştirak edib. "N" saylı hərbi hissənin şəxsi heyət üzrə komandir müavini olub, Azərbaycan Milli Elmlər Akademiyasında işləyib, sonralar Azərbaycan radio və televiziyasında jurnalist kimi çalışıb. Hazırda 65 yaşlı şair doğma kəndi Saraclıda yaşayıb yaradır" – deyə o bildirib.

"Nizami Paşa Saraclı 1991-ci ildə 43 ölkədən 3 500 şairin iştirak etdiyi müsabiqənin qalibi olub, 2002-ci ildə Avrasiya Beynəlxalq Mətbuat Fondunun təsis etdiyi "Dünya həqiqətlərini ictimaiyyətə çatdırdığına və döyüş xidmətlərinə görə" "Avrasiya" mükafatına layiq görülüb. Şair 2002-ci ildə Gürcüstanın ali mükafatı - "Şərəf" ordeni ilə təltif olunub. N. Saraclı həmçinin 2003-cü ildə 7 ölkə şairlərinin müsabiqəsinə qatılıb və qalib olaraq Beynəlxalq "Abay" mükafatına layiq görülüb. Onun yaradıcılığını saflıq, səmimiyyət, zəngin leksikon və intəhasız təxəyyül fərqləndirir" – deyə B.Əlioğlu vurğulayıb.

Tədbirdə çıxış edən professor Mahmud Kamaloğlu şairin həyat və yaradıcılığı, nəşr olunan kitabları haqqında ətraflı məlumat verib. Sonra yazıçı və şairlərdən Əli Abbas, Allahverdi Təhləli, Osman Əhmədoğlu, Güllü Tomarova, Səadət Buta, 92 yaşlı el şairi Tahir Həkimli (Padaroğlu), Gürcüstan Jurnalistlər Birliyinin sədri Nizami Zillioğlu, tədqiqatçı-jurnalist Mirzə Məmmədoğlu, şair Səyavuş Uyğun, ziyalı Etibar Səmədov, "Ümid" qəzetinin redaktoru Əlixan Yəhyaoğlu, istefada olan polkovnik-leytenant İsmayıl Həkimli, Sadaxlı kənd məktəbinin direktoru Adil Şərifov, ziyalı Əmiraslan Əlizamanlı və başqaları çıxış edərək şairi yubileyi münasibətilə təbrik edib, ona cansağlığı və yaradıcılıq uğurları arzulayıblar.

Tədbirdə şair Nizami Paşa Saraclı AMM-in "Gürcüstan-Azərbaycan ədəbi əlaqələrinin inkişaf etdirilməsində göstərdiyi xidmətlərə görə" diplomu ilə təltif edilib. Sonra iştirakçılar yubilyara gül-çiçək dəstələri, şairin şəkili toxunan xalça və digər hədiyyələr təqdim ediblər. Aşıq Nargilə Mehdiyeva və Aşıq Bafəli Adıgözəlov isə öz ifaları ilə tədbiri şənləndirib.

Sonda Nizami Paşa Saraclı yubiley tədbirinə qatılanlara təşəkkür edib və qələmə aldığı yeni şeirlərini oxuyub. Tədbirdə şairin "Sara Xatun" əsəri əsasında hazırlanan tamaşanın video-lenti nümayiş olunub.

**"RegionPress"**



# Marneulidə Borçalı aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Göycənin anım tədbiri keçirilib




*AMM-də Gürcüstan Aşıqlar Birliyinin və Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə XX əsr Borçalı aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Göycənin anım tədbiri keçirilib.*

Tədbirdə ustad aşığın şeirləri, deyişmələr, dastan, onun haqqında yazılan xatirələr toplanmış və ustada ithaf edilən "Haqdan pay olan Göycə" adlı kitabının təqdimatı da keçirilib. Tədbir aşıq Nargilənin ifası ilə açılıb. Sonra AMM-in rəhbəri Fazil Həsənov görkəmli ustad aşığın yaradıcılığından söhbət açıb. Tədbirə aparıcılıq edən Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu, filologiya üzrə fəlsəfə doktoru, professor Mahmud Kamaloğlu, şairlərdən Nizami Saraclı, Səadət Buta, Güllü Tomarova, Əlixan Yəhyaoğlu, Türkiyənin İzmit şəhərindən gələn Yıldıray Aydəmir, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Zillioğlu, iş adamı Hüseyn Artıkoğlu, ziyalılardan Vəzir Vəliyev, Fazil Əmrahoğlu, Zahid Nəsibov və başqaları çıxış edərək ustad sənətkarın Borçalı aşıq məktəbində xüsusi yeri olduğunu, onun həm Borçalıda, həm də Azərbaycan və Türkiyədə tanındığını bildiriblər. "Salam"



Mədəni-Xeyriyyə Cəmiyyətinin rəhbəri Maya Rəcəbli ustadın oğlu Aşıq Şahbaza xatirə hədiyyəsi təqdim etdi.

Tədbirdə qeyd olunub ki, məşhur Borçalı şairi Ağacanın şagirdi olmuş Aşıq Göycə 40-dək şagird yetişdirib və hazırda şagirdləri onun adını şərəflə yaşadırlar. Tədbirdə Borçalı aşıqlarından aşıq Ziyəddin Keşəli, Əfqan Şamilov, Nargilə, Məsim Rəcəbli, Aşıq Ayaz aşığın şerlərini saz havaları üstündə oxuyublar.

Tədbirdə çıxış edən "RegionPress" qəzetinin redaktoru Binnət Əlioğlu Aşıq Göycənin "Elm və təhsil" nəşriyyatında nəşr olunan kitabının məziyyətləri haqqında məlumat verib. Aşıq Göycə 8 yaşında ikən "çiçək" xəstəliyindən gözlərinin nurunu itirib, lakin özünün xüsusi istedadı sayəsində yanında çalınan saz havalarını, qoşma və dastanları əzbərləyib, bədahətən şeirlər deməyi bacarıb. O, 18 pərdəli sazı ilə 84-dək saz havasını dəqiq çalıb, bir çox aşıqların bilmədiyi və indi unudulan "Fəxri", "Qürbəti", "Şah İsmayılı" kimi havaları, həmçinin Borçalı aşıq məktəbinə məxsus havacatları, 70-dək xalq dastanlarını əzbər bilib və məclislərdə əsl sənətkara məxsus ustalıqla ifa edib. Görkəmli ustad aşıq 1996-cı ildə vəfat edib və Marneulinin Qaçağan kəndində torpağa tapşırılıb.

Tədbirdə Aşıq Göycənin oğlu Aşıq Şahbaz təqdimatı keçirilən "Haqdan pay olan Göycə" kitabının nəşr olunmasına dəstək verdiyinə görə, Bakıda yaşayan əslən Borçalıdan olan Mahal Tükənliyə, kitabın tərtibçisi Musa Nəbioğluna və ön sözün müəllifi xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri Zəlimxan Yaquba təşəkkür edib.

**N.Məmmədzadə**

# Rustavidə saz bayramı



*Rustavidə saz bayramı artıq dördüncü dəfədir ki, keçirilir.*

Tədbiri Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu açdı. Aparıcı Suddarxan Kazımov çıxış üçün sözü Azərbaycan Aşıqlar Birliyinin katibi, "Ozan dünyası" jurnalının baş redaktoru Musa Nəbioğluna verdi. Musa müəllim xalq şairi Zəlimxan Yaqubun xoş arzularını iştirakçılara çatdırdı və dedi ki, Aşıq Məsimin gənc olmasına baxmayaraq, biz Zəlimxan müəllimlə onun Azərbaycan Aşıqlar Birliyinə üzv seçilməsini qərara aldıq. İndi mən birliyin üzvlük biletini sizin iştirakınızla təntənəli surətdə Aşıq Məsimə təqdim edirəm.

Sonra Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu bildirdi ki, Aşıq Məsim bu günlərdə Türkiyənin Dənizli şəhərində keçirilmiş festivaldan qalibiyyətlə qayıtmışdır.

Kvemo Kartli bölgəsinin qubernatoru Paata Xizanişvili Məsimin bu qələbələrinə sevindiyini bildirdi, öz xalqını, vətənini xarici ölkələrdə layiqincə təmsil etdiyinə görə onu Fəxri fərmanla təltif etdi.

Qubernator Rustavi şəhərində və bölgənin rayonlarında mədəni-xeyriyyə tədbirləri həyata keçirdiyinə, imkansızlara yardım əli uzatdığına görə, Məsimin anası, "Salam" Mədəni-Xeyriyyə Cəmiyyətinin sədri Maya Rəcəbovanı da Fəxri fərmanla təltif etdi.

Həm Məsim, həm də Maya xanım bu etimada görə qubernatora təşəkkürlərini bildirdilər.

Ukraynalı və polşalı qonaqlar çıxışlarında tədbirdə iştirak etdikləri üçün qubernatora və təşkilatçılara təşəkkürlərini bildirdilər və rəqs etdilər.

Saz bayramına toplaşan və çıxış edənlərin hər biri iki dost xalq – gürcü və Azərbaycan xalqlarının əsrlər boyu davam edən münasibətlərindən söz açdılar və bu cür tədbirlərin əhəmiyyətini xüsusilə vurğuladılar.

Aşıqlar və müğənnilərin çıxışları, "Sarvan" folklor ansamblının rəngarəng rəqsləri tamaşaçıların rəğbətini qazandı.

**Elman Kələyev**



**Kərim Məmmədov**

### YAYLAQ, MƏNİ QONAQ EYLƏ

Könlüm yenə səni andı,
Yaylaq, məni qonaq eylə.
Həsrətindən alovlandı,
Yaylaq, məni qonaq eylə.

Uşaqlığım səndə keçdi,
Xatirələr yada düşdü,
Kövrək qəlbim yenə coşdu,
Yaylaq, məni qonaq eylə.

Gəncliyimi mənə qaytar,
Ürək səndə qərar tutar,
Dərdim-qəmim itər, batar
Yaylaq, məni qonaq eylə.

Bülbüllərin nəğməsinə,
Bulaqların gur səsinə,
Cavanlığın həvəsinə,
Yaylaq, məni qonaq eylə.

Saf suların şəfasına,
Şamdüyənin havasına,
Əyriqarın səfasına,
Yaylaq, məni qonaq eylə.

Kəriməm, dağlar aşaram,
Zirvələrdə dolaşaram,
Nə yorular, nə çaşaram,
Yaylaq, məni qonaq eylə.

### TAXTALI BULAĞA MÜRACİƏT

*Şeir 1988-90-cı illərdə Borçalı bulaqlarını kimsəsiz gördükdən sonra yaranmışdır*

Səni tənha gördüm, pərişan oldum.
Niyə danışmayır dilin, Taxtalı?
Qəm yükü daşıyıb mən piran oldum,
Niyə açılmayıb gülün, Taxtalı?

Həmişə olardın toylu, büsatlı
Qonaqlı, qaralı, dəmli, dəsgahlı,
Sevənlər də gəlmir soylu, sovqatlı
Niyə bükülübdü belin, Taxtalı?

Nədir bu qəm-qüssə, nədir bu kədər?
Başına dolanmır nazlı sənəmlər,
Köksündən su içmir igid ərənlər,
Niyə pərişandır halın, Taxtalı?

Nədir gözlərindən axan bu yaşlar?
Harada qalıbdır dostlar, sirdaşlar?
Sinəndə dincələn o qələm daşlar
Niyə daramayır telin, Taxtalı?

Üstündə nəğməli quşlar ötərdi,
Qartal başın üstə nərə çəkərdi,
Gülündən arılar şirə çəkərdi,
Niyə zəhrə döndü balın, Taxtalı?

Kərim də dünyadan bir gün köçəcək,
Hüsnündən doymayıb nakam gedəcək,
Əbədi dünyanı məkan seçəcək,
Sizlər sağ-salamat qalın, Taxtalı!

### TAXTALI BULAĞIM, MƏNİ UNUTMA!

Əzəldən hüsnünə vurğun olmuşam,
Unutma, Taxtalım, məni unutma!
Hicrindən saralıb gültək solmuşam,
Unutma, Taxtalım, məni unutma!

Əlim sənə çatmır, gör nə haldayam
Ömür sona yetir, geylü-qaldayam,
Əbədi dünyaya gedən yoldayam,
Unutma, Taxtalım, məni unutma!

Bəzəyi, tacısan şeirin, qəzəlin,
Sözü, söhbətisən min bir gözəlin,
Elmlə bağlıdır adın, əzəlin,
Unutma, Taxtalım, məni unutma!

Canlı şahidisən təmiz eşqimin
Həzin nəğməsisən kövrək qəlbimin,
Sönməz çırağısan talan ömrümün
Unutma, Taxtalım, məni unutma!

Qoy yadigar qalsın sinəndə adım,
Məni xatırlasın qohumum, yadım,
Gözümdə qalmasın arzum, muradım,
Unutma Kərimi, a şah bulağım,
Taxtalı bulağım, a şah bulağım!

### MƏN QOCALMIŞAM

Cavanlıq çağında öndə durardım,
Çeşmələr başında məclis qurardım,
Güləş meydanında qollar burardım,
Artıq dövran keçib, yaşa dolmuşam,
A dostlar, deyəsən mən qocalmışam.

Qırx, əlli yaşında ov ovlayardım,
Pusquda dayanıb şikar vurardım,
Ceyran, cüyürləri yorğun salardım,
İndi dizim tutmur, dalda qalmışam,
A dostlar, deyəsən mən qocalmışam.

Altmış yaşında çaytək daşardım,
Quzeylər dolaşıb, dağlar aşardım,
Nə yorulmaq bilər, nə də çaşardım,
İndi hərəkətdən, gücdən qalmışam,
A dostlar, deyəsən mən qocalmışam.

Saç-saqqal ağarıb, qəddim əyilib,
Diş, çənə sökülüb, damaq əzilib,
Qulaq eşitməyir, yaddaş pozulub,
Ayları, illəri çaş-baş salmışam,
A dostlar, deyəsən mən qocalmışam.

Sağdan səs gələndə sola baxıram,
Soldan səs gələndə sağa baxıram,
Dərəyə baxıram, dağa baxıram,
Yəqin ki, anlamım itib çaşmışam,
A dostlar, deyəsən mən qocalmışam.

Kərim yenə istər gəzsin dağları.
Yaşıl çəmənləri, göy yaylaqları,
Qalın meşələri, buz bulaqları,
Köhlənim yorulub, yolda qalmışam,
A dostlar, deyəsən mən qocalmışam.

### Tikanlı şeir

Ay şarlatan, şər atan,
Mərdi namərdə satan.
Düşməyir heç dilindən,
Nə yalan, nə də böhtan.

İnsanlar arasında
Savaşmalar salırsan.
Bu pis əməllərinlə,
Söylə nə qazanırsan?

Xeyirxahlıq, insanlıq,
Sənə yaddır əzəldən.
Ay ziyankar, naxələf,
Əl çəksən bəd əməldən!

El gözü tərəzidir,
Seçir əyrini-düzü,
Quyu qazan namərdin,
Bir gün düşəcək özü!

### Dərdin açarı

Ağlamaqla müşkül dərdlər azalsa,
Gözümdən müntəzəm sellər axardı.
Tanrı doğma bilib üstümü alsa,
Canımı alova, közə yaxardı.

Ömrün bu yaşında açıb cəngini,
Dərdi dərd üstündən qalayıb indi.
Salıb ürəyimə öz kəməndini,
Azadlıq şərəfi bil ki, çətindi.

Kimdi haqq yolumu kəsən gizlicə,
Bu ki, taleyimin nicat yoludur.
Üstümdən yellər tək əsən gizlicə,
Hansı bir atanın namərd oğludur.

Ömür də bir borcdu əlli il, yüz il,
Borcu ödəməyə zaman gərəkdir.
Heç nə ürəyimə təsəlli deyil,
Bunu tale yolum göstərəcəkdir.

Ağlamaq lazımmı dərdin önündə?
Ay dərdlər, ömürdən gəldi-gedərdin.
Nə qədər dərd çəksən ağrılı gündə,
Nə ağrın azalmaz, nə də ki, dərdin.

Bəxtin qanadında uçsan həmişə,
Tale də, qismətdə öz vaxtındadır.
Zülmlə, əzabla dözsən gərdişə,
Tanrının verdiyi söz vaxtındadır.

Dünya öz işində dəyirman kimi,
Yaşamaq heç olub yaşamamaqdan.
Çax-çaxın işini anlayan kimi,
Həyata gəlişin olub nahaqdan.

Cavab ver sualı eşidən kimi,
Kimdədir dərdlərin çarə açarı.
Olsa da qəlbinin məlhəm hakimi,
Özün verməlisən özün qərarı.

Dağamı üz tutum, düzəmi qaçım,
Bu dünya könlümə yaman dar olub.
İstərəm hər zaman şəfəqlər saçım,
Bəxtim taleyimə bir həmkar olub.



**Küskün Əsmər**

### Hələ qurtarmayıb ömrüm!

Sındırılmış budaqsanmı?
Söndürülmüş çıraqsanmı?
Soğulmuş bir bulaqsanmı?
Qəm eyləmə küskün könlüm,
Hələ qurtarmayıb ömrüm!

Bağlı qalmış boxcasanmı?
Qəlif çıxmış axçasanmı?
Bağbanı ölmüş baxçasanmı?
Qəm eyləmə küskün könlüm,
Hələ qurtarmayıb ömrüm!

Qurum basmış bucaqsanmı?
Qoru sönmüş ocaqsanmı?
Qoynu yarsız qucaqsanmı?
Qəm eyləmə küskün könlüm,
Hələ qurtarmayıb ömrüm!

Namərd pusquda dursa da,
Torunu xəlvətdə qursa da,
Mərdi arxadan vursa da,
Qəm eyləmə küskün könlüm,
Hələ qurtarmayıb ömrüm!

Görməsə də naxələfin gözü,
Seçməsə də əyrini, düzü,
Allah özü görür bizi,
Qəm eyləmə küskün könlüm,
Hələ qurtarmayıb ömrüm!



**Səyavuş UYĞUN**

### DÜZLÜYƏ QAYTAR

Bir dəfə verilir insana ömür,
Ay allah, insanı düzlüyə qaytar.
Çoxları bilir ki, əyri yoldadır,
Ay allah, insanı düzlüyə qaytar.

Namərd yoldaş olub mərd ilə gedir,
Düz yolu buraxıb sərt ilə gedir,
Gedəndə dünyadan dərd ilə gedir,
Ay allah, insanı düzlüyə qaytar.

Həqiqət axtarma əyri yolla sən,
Sağına möhtacsan, hər an solla sən,
Yeriyə bilməzsən bu münvalla sən,
Ay allah, insanı düzlüyə qaytar.

Düzü əyri bilib, düzlükdən demə,
Düzlərin önündə kədər, qəm yemə,
Nəzər sal həmişə bu dediyimə,
Ay allah, insanı düzlüyə qaytar.

Paxıllar, nadanlar tutub dünyanı,
Düzlükdən dəm vuran o dostlar hanı,
Əyrilər zəbt edib geniş meydanı,
Ay allah, insanı düzlüyə qaytar.

Düzə zaval yoxdu, əyrini sına,
Düz yola gəlməsə onları qına,
Baxma əyrilərin yalvarışına,
Ay allah, insanı düzlüyə qaytar.

Qəza xəbərləri sarsıdır bizi,
Hər zaman dağlayır ürəyimizi,
Bizləri çaşdırır onların izi,
Ay allah, insanı düzlüyə qaytar.

Anaya, ataya əl qaldırırlar,
Dərdsiz ürəklərə dərd aldırırlar,
Nahaqdan araya qan saldırırlar,
Ay allah, insanı düzlüyə qaytar.

Ürək dərdimizi dünyalar bilir,
Nəmli gözümüzün yaşını silir,
İnsan bir-birinə qənim kəsilir,
Ay allah, insanı düzlüyə qaytar.

Kimi dəm-dəzgahlı saraylar yapır,
Gecəli-gündüzlü hey çalır-çapır,
Əlləri əyrilər "ləl-gövhər" tapır,
Ay allah, insanı düzlüyə qaytar.

Oğruluq edərək cibləri kəsir,
Ədalət önündə yarpaq tək əsir,
Nə öyüd-nəsihət etməyir təsir,
Ay allah, insanı düzlüyə qaytar.

Əyri ürəyində bir insaf olsun,
Hər sözü-söhbəti düz-şəffaf olsun,
Arzusu, diləyi daim saf olsun,
Ay allah, insanı düzlüyə qaytar.

Hopdur könüllərə hər ləyaqəti,
Düzlükdə axtarsın qoy sədaqəti,
Çıxart ürəklərdən kin-küdurəti,
Ay allah, insanı düzlüyə qaytar.
Ay allah, insanı düz yola qaytar.

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№10 (185) 31.07.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**Məxluqa itaət edib, Yaradana itaətsizlik göstərənin dini yoxdur!**

**İmam Əli (ə)**

## Dünyanın ən qara uşağı

***Sosial şəbəkədə sürətlə yayılan bu fotoşəkildəki körpənin dünyanın ən qara körpəsi olduğu iddia edilir*.**



İddia hələ sübut edilmiş olmasa da, körpənin Cənubi Afrikada dünyaya gəldiyi məlumdur.

Fotoşəkilin gerçək bir qaynağa aid olub-olmadığı hələ mübahisə edilir. Mahatma Qandi Memorial Xəstəxanasında doğulduğu iddia edilən qara körpə indidən bir çox ölkədə xəbər bülletenlərinə mövzu olub.

## Əsrin sonunda dünya əhalisi 11,2 milyarda çatacaq

***XXI-ci əsrin sonunadək Yer kürəsinin əhalisi 11,2 milyarda çatacaq.***

BMT-nin Demoqrafiya məruzəsində belə deyilir.

2030-cu ildə dünyada əhalinin sayı 8,5 milyard, 2050-ci ildə isə - 9,7 milyard təşkil edəcək. Hazırda Yer kürəsində 7,3 milyard insan yaşayır.

Hesablamalara əsasən, 2022-ci ilədək Hindistan əhalinin sayına görə Çini ötüb keçəcək, 2050-ci ildə isə Nigeriya ABŞ-ı qabaqlayaraq dünyada 3-ü yerə çıxacaq.



Məruzədə həmçinin qeyd edilir ki, 2050-ci ildə yaşı 60-dan çox olan insanla-rın sayı ikiqat artacaq, Avropada isə ahıl yaşlı insanların sayı 34%-i təşkil edəcək.

## Batmış gəmidən xəzinə çıxdı

***Amerikanın Florida ştatı sahillərində xəzinə axtaran bir ailə əsrlər əvvəl batmış bir gəminin içərisindən xəzinə tapıb.***



3 əsr əvvəl batan "Queens Jevells" (Kraliçanın Qızılları) adlı gəmidə tapılan xəzinənin 51 qızıl sikkədən və 12 metr uzunluğundakı qızıl zəncirdən ibarət olduğu məlum olub. Dəyəri 1 milyon dollar olan xəzinə ailə üzvləri arasında bölünəcək. Məlumatlara görə, xəzinəni tapan Schimitt ailəsi illərdir batıq gəmilərin içərisində xəzinə axtarırlar. Florida ştatındakı qanunlara görə, dövlət tapılan xəzinənin 20%-ə əl qoyur və muzeydə sərgiyə çıxarır.

## Möcüzənin bir adı - Qarpız

Yayın əvəzedilməz meyvəsi olan qarpızın 91 %-i sudan ibarətdir.

Qarpız bu xüsusiyyəti ilə hərarəti aşağı salır və sərinlədici təsir bağışlayır.

Mütəxəssislər qarpızın sağlamlığa faydalarını aşağıdakı kimi sıralayır:

*- Qarpız idmandan sonra əzələ ağrılarını aradan qaldırmağa kömək olur.*

*- Katarakt riskini azaldır.*

*- Kök adamlarda yüksək təzyiqin aşağı düşməsinə kömək olur.*

*- Qarpızda bol miqdarda A vitamini var. A vitamini çatışmadıqda göz quruluğu, göz infeksiyası və görmə zəifləməsi kimi problemlər ortaya çıxa bilər.*



*- A və C vitaminindən əlavə, kalsium, dəmir, maqnezium, fosfor, kalium, mis və manqan mineralları ilə zəngindir.*

*- Həzm üçün möcüzəvi qidadır, çünki lif baxımından da zəngindir.*

*- Qarpızda olan antioksidanlar astma, ürək narahatlıqları, romatoid arterit və prostat xərçəngi riskini azaldır.*

*- Bağırsaqları və qanı təmizləyir.*

*- Sümüklərin inkişafını təmin edir.*

## Siqaret şizofreniyaya səbəb olur

***Araşdırmaçılar siqaret çəkməyin şizofreniya xəstəliyinin inkişafında birbaşa rol oynadığını açıqlayıb.***



Bu barədə Lanset Psikatri (Lancet Psychiatry) jurnalı məlumat yayıb.

İngiltərədəki araşdırmaçılar 14.555 siqaret istifadəçisi ilə 273.162 siqaret çəkməyən insan arasında təcrübə keçiriblər.

Aparılan 61 fərqli araşdırmanın nəticəsi demək olar ki, eyni çıxıb. Nəticəyə görə, nikotinin beyni dəyişdirdiyi orataya çıxıb.

Siqaret çəkənlərdə şizofreniya xəstəliyinə tutulma riskinin daha erkən başladığı məlum olub.

Normal şərtlərdə şizofreniyaya hər 100 adamdan biri tutularkən, siqaret çəkmək ilə bu nisbət yüzdə ikiyə qalxır.

## Türkiyədə unikal maşın satışa çıxarıldı

***Türkiyədə kitabyuyan maşın – "Book Shower" satışa çıxarılıb.***

Cənubi Koreyadan idxal edilən bu maşının köməyi ilə köhnə kitablarda toplanmış toz və bakteriyalara qarşı gigiyenik təmizlik təmin ediləcək.



Kitabyuyan maşın bir çox ölkədə böyük marağa səbəb olub.

"Book Shower"i Türkiyəyə gətirən "ABŞ Nəşriyyatı"nın sahibi Çağla Acar yeni məhsulla bağlı açıqlama verib: "Kitab bu maşında 2 dəqiqə ərzində sterilizə olunur. Sadəcə, bir düyməyə basmaqla kitablarınızın bütün səhifələrini təmizləyə bilərsiniz. Kitabxanaçılar və kolleksiyaçılar bu maşından asanlıqla istifadə edə bilərlər. Oxumazdan əvvəl və ya sonra kitabı 1-2 dəqiqəlik maşına qoyun".

## BAŞSAĞLIĞI

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin və Bolnisi rayonunun Faxralı 1 saylı ümumi məktəbinin kollektivləri Faxralı 1 saylı məktəbin direktoru ***Cümşüd Gülməmmədova*** qardaşı

**Əmirxan Allahverdi oğlunun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

---

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə nümayəndəsi ***Qazi Hacı Əliyə*** atası

**Zahid Bayram oğlu Əliyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

---

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi "Bakuriani" və "Lanset" xəstəxanalarının aparıcı həkim-cərrahı, tibb elmləri doktoru

**Dursun Xəlil oğlu Əliyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***




*- Oğlum, biz hamımız yeni həyata başlayırıq. Mən dietalarımı buraxıram, atan siqareti buraxır, bəs Sən?*

*- Ana mən məktəbi buraxıram.*

***

*Müəllimə şagirdlərdən soruşur:*

*-2 almamaq üçün nə etmək lazımdır?*

*-2 almamaq üçün siz bizi dərs danışmağa çağırmamalısınız.*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*

*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**

*Məsul katib:* **İbrahimxəlil**

*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**

*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

***Redaksiyanın ünvanı:***
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**